# REGION ÜÇÜN YENİ NƏQLİYYAT ARTERİYASI

“Azərbaycanın əsas hissəsini onun ayrılmaz hissəsi olan Naxçıvanla birləşdirmək bizim çoxdankı arzumuz olub”.

Prezident İlham Əliyevin Naxçıvanda Azərbaycan Televiziyasına müsahibəsi zamanı Zəngəzur dəhlizi ilə bağlı açıqlamaları, həmçinin Azərbaycanın davam edən prosesə bağlı sərgilədiyi mövqe diqqəti yenidən TRIPP layihəsinə yönəldib. Prezident müsahibəsində dəhlizlə bağlı aparılan danışıqlar, onun inkişaf prosesi ilə bağlı mühüm açıqlamalar verib.

SƏHİFƏ 4-də



‘KASPİ’ QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

Kaspi

ÜÇ ƏSRİN QƏZETİ



15 AVQUST ŞƏNBƏ 2026 № 30 (4281) Qiyməti - 60 qəpik www.kaspi.az



## XANKƏNDİYƏ NÖVBƏTİ KÖÇ

Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdış davam etdirilir. Növbəti köç karvanı Xankəndi şəhərinə çatıb, sakinlərin mənzillərinin açarları təqdim olunub.

SƏHİFƏ 2-də



## VALYUTA BAZARINDA DOLLAR BOLLUĞU

Dollara tələbin kəskin azalmasının səbəbləri ilə bağlı yanaşmalar fərqlidir. Ekspertlərin bir qismi bunu idxalın azalması, manata inamın güclənməsi ilə əsaslandırır. Digər qisim isə daha çox iqtisadi fəallıq amilini önə çəkir.

SƏHİFƏ 7-də



## GÜNVURMA, İNFARKT, YOXSA İNSULT?

Yay aylarında ən çox rast gəlinən çətinliklərdən biri səhhəti qəfil pisləşən şəxsdə bunun adi günvurma, infarkt, yoxsa insult kimi həyati təhlükə yaradan vəziyyət olduğunu müəyyənləşdirməkdir.

SƏHİFƏ 14-də

# NAXÇIVANIN İNKİŞAFINDA YENİ MƏRHƏLƏ



Prezident İlham Əliyevin Naxçıvana son səfəri muxtar respublikanın inkişafında yeni mərhələnin başlanğıcı kimi dəyərləndirilir. Səfər proqramı özünün çoxistiqamətliliyi və əhatə dairəsi ilə diqqət çəkir.

### PREZİDENTİN NAXÇIVANA SAYCA 17-Cİ SƏFƏRİ

Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın avqustun 11-də Naxçıvana son səfəri bölgə üçün mühüm siyasi, iqtisadi və sosial nəticələrlə yadda qaldı. Qeyd edək ki, bu, Prezident İlham Əliyevin Naxçıvana reallaşan 17-ci səfəridir.

### 258 MİLYON MANATLIQ YENİ SƏRƏNCAM

Səfərdən dərhal sonra Prezident İlham Əliyev Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında Sərəncam imzalayıb. Sərəncam özünün əhatəliliyi, çoxistiqamətliliyi ilə seçilir.

SƏHİFƏ 3-də

Kapital bazarında fərqli tendensiyalar

## KAPİTAL BAZARINDA PARADOKS




Azərbaycanın qiymətli kağızlar bazarında repo əməliyyatlarının azalması bazarın ümumi dövriyyəsini aşağı salsa da, korporativ seqmentdə aktivlik artır. Mütəxəssislər bazarın əsas probleminin həcmdən çox, struktur və likvidlik məsələləri olduğunu bildirirlər.

SƏHİFƏ 8-də



## UKRAYNADA SEÇKİ DİLEMMASI

Ukraynada müharibədən sonrakı ilk prezident seçkisi təkcə yeni rəhbəri müəyyən etməyəcək. Bu seçki həm də Ukrayna cəmiyyətinin müharibədən sonra hansı istiqaməti seçəcəyini göstərəcək.

SƏHİFƏ 5-də



## KƏNDLİDƏN ALICIYA GEDƏN YOL DƏYİŞİR

2025-ci ilin sonunda Bakıda 17 bazar və yarmarka fəaliyyət göstərib. Bu göstərici əvvəlki illə müqayisədə bir vahid azalsa da, sürətlə artan əhali və istehlak tələbi fonunda bu sayın kifayət edib-etmədiyi sual doğurur.

SƏHİFƏ 13-də



## HƏR İKİSİ ETİMADI DOĞRULTDU

Azərbaycan avrokubokların əsas mərhələsində iki klubla təmsil olunmağa yaxındır. Son çempion “Sabah” artıq buna nail olub. “Qarabağ” isə liqa mərhələsinin bir addımlığındadır.

SƏHİFƏ 16-da



Xırdalan-Sumqayıt qatarı bərpa olunur

SƏHİFƏ 2-də




Portfel böyüyür, rəqabət kəskinləşir

SƏHİFƏ 6-da



Yaylaqlar daralır, sürülər azalır

SƏHİFƏ 12-də




Qonaq da az, gəlir də

SƏHİFƏ 9-da



Şeirləri ilə portretini yaradan şair

SƏHİFƏ 15-də



## İrakli Kobaxidze Faiq Quliyev ilə görüşüb

Gürcüstanın Baş naziri İrakli Kobaxidze Azərbaycanın bu ölkədəki fövqəladə və səlahiyyətli səfiri Faiq Quliyev ilə görüşüb.

"Report"un yerli bürosu xəbər verir ki, bu barədə Gürcüstan hökumət administrasiyası məlumat yayıb. Görüş zamanı Gürcüstan-Azərbaycan strateji tərəfdaşlığının yüksək səviyyəsi vurğulanıb. Tərəflər iki ölkə arasında əməkdaşlığın daha da dərinləşdirilməsi perspektivlərini müzakirə ediblər. Bu kontekstdə İrakli Kobaxidzenin Azərbaycana rəsmi səfəri çərçivəsində imzalanmış müqavilələrin strateji əhəmiyyəti xüsusi qeyd olunub.



## Xırdalan-Sumqayıt qatarı bərpa olunur

"Azərbaycan Dəmir Yolları" QSC Xırdalan-Sumqayıt xətti üzrə sərnişin qatarlarının hərəkətini bərpa etməyə hazırlaşır. "Report" bu barədə səhmdar cəmiyyətinə istinadən xəbər verir.

Məlumata görə, "Bakı şəhərində və ətraf ərazilərdə nəqliyyat infrastrukturunun təkmilləşdirilməsinə dair 2025–2030-cu illər üçün Dövlət Proqramı"nın icrası çərçivəsində Xırdalan-Güzdək sahəsində dəmiryol xətlərinin altından yeni avtomobil yolu keçidinin inşası tamamlanıb və dəmir yolu ilə sözügedən istiqamətdə sərnişindaşımanın bərpası üçün hazırlıq işlərinə başlanıb.

Hazırda Xırdalan-Sumqayıt sahəsi üzrə yol infrastrukturuna baxış keçirilir, eyni zamanda, bu istiqamətdə təyin olunacaq yeni reyslər üzrə istismara veriləcək hərəkət tərkiblərinin təmiri işləri davam etdirilir. Bütün bu işlər başa çatdıqdan sonra Bakı-Xırdalan-Sumqayıt marşrutu ilə qatarların Sumqayıta hərəkəti yeni tədris ili başlayana qədər bərpa olunacaq.

Sözügedən qatarlar həmişəki qaydada həftənin bütün günlərində mövcud dayanacaqlar üzrə hərəkət edəcək.

# XANKƏNDİYƏ NÖVBƏTİ KÖÇ

Növbəti köç karvanı Xankəndi şəhərinə çatıb, sakinlərin mənzillərinin açarları təqdim olunub. Bu mərhələdə Xankəndi şəhərinə 22 ailə - 102 nəfər köçürülüb.









**Fotolar:** Rüfət Mikayılov /Global Photostock

Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdış davam etdirilir. Növbəti köç karvanı Xankəndi şəhərinə çatıb, sakinlərin mənzillərinin açarları təqdim olunub. Bu mərhələdə Xankəndi şəhərinə 22 ailə - 102 nəfər köçürülüb.

### XANKƏNDİDƏ BÜTÜN ZƏRURİ ŞƏRAİT YARADILIB

Xankəndi şəhəri, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin icraçı direktorunun müavini Mahmud Əfəndiyev keçmiş məcburi köçkünlərin qarşılanması və mənzillərin açarlarının təqdimat mərasimində çıxış edərək sakinləri doğma torpaqlarına qayıtmaları münasibətilə təbrik edib. M.Əfəndiyev Xankəndidə aparılan genişmiqyaslı bərpa və yenidənqurma işləri barədə məlumat verib: "Böyük Qayıdış proqramı çərçivəsində keçmiş məcburi köçkünlərin doğma yurdlarına qayıdışı mərhələli şəkildə davam etdirilir. Qayıdan sakinlərin rahat və təhlükəsiz yaşamaları üçün Xankəndidə bütün zəruri şərait yaradılıb. Şəhərdə yaşayış binaları ilə yanaşı, sosial və kommunal infrastruktur da yenidən qurulur".

## "Gözlədiyimiz gün gəlib çatdı"

Xankəndi şəhərinə köç edənlər respublikanın müxtəlif yerlərində, əsasən, yataqxanalarda, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdir.

Doğma yurda qayıdan sakinlər hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür ediblər. Onlar həmçinin torpaqlarımızı işğaldan azad edən rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlik zirvəsinə ucalanlara rəhmət diləyiblər.



"Uzun müddətdir, gözlədiyimiz gün gəlib çatdı. Doğma Xankəndiyə qayıdırıq. Çox sevincliyik", - deyə Xankəndi şəhərinə köç edən keçmiş məcburi köçkün Kəmalə Məmmədova jurnalistlərə açıqlamasında deyib.

"Allah şəhidlərimizə rəhmət eləsin, Ali Baş Komandana, qazilərimizə cansağlığı versin ki, bu günləri görməyimizə səbəb oldular", - o bildirib.

### "BURADAN ÇIXANDA DÖRD YAŞIM VAR İDİ"

Xankəndi şəhərinə köç edən keçmiş məcburi köçkün Taleh Həsənov bildirib ki, şəhərdən çıxanda dörd yaşı var idi: "Baxmayaraq ki, balaca idim, lakin böyüklərimiz bizə o torpaq, doğma yurd sevgisini aşılayıblar". O, sevincinin həddi-hüdudu olmadığını bildirib: "Allah bu günləri bizə yaşadan Ali Baş Komandanımıza, qazilərimizə cansağlığı versin, şəhidlərimizə rəhmət eləsin. Onların sayəsində öz yurdumuza qayıdırıq".

## "Ata yurduma qayıtdığım üçün çox sevincliyəm"

"Ata yurduma qayıtdığım üçün çox sevincliyəm". Bu sözləri Oxu.Az-a açıqlamasında Xankəndi şəhərinə köçən Bəsdi Rzayeva deyib. "İstəyirdik ki, öz vətənimizdə qalaq. Amma olmadı, vəziyyət dəyişdi. Köçkün düşdük. Bu gün ata evimizə getdiyimiz üçün sevincliyəm. Allah şəhidlərimizə rəhmət eləsin. Qazilərimizə cansağlığı arzu edirəm", - deyə o qeyd edib.



Bəsdi Rzayeva

Xankəndi şəhərinə köçən şəhid anası Əzizə Mirzəyeva da sevinclidir: "Doğma yurdumuza qayıtdığım üçün çox sevincliyəm". O bildirib ki, indiyə qədər 11 yerdə köçkün kimi yaşayıb: "Evim olmayıb. Bugünkü günə min şükür. Övladlarımla ata evinə gedirik. Doqquz nəfərlə köçkün düşmüşdük. İndi beş nəfər qayıdırıq - üç igid balam şəhid olub. Şəhidlərin ruhu şad olsun. Qazilərimizə cansağlığı arzu edirəm. Təki salamatlıq olsun, Prezidentimiz başımızdan əskik olmasın. Evlər çox gözəldir. Bunlar yaxşı düşünməyin əməyidir ki, ərsəyə gəlib".

Xankəndi şəhərinə köçən Zemfira Əliyeva bildirib ki, Xankəndindən köçkün düşəndə 18 yaşı olub: " Pis vəziyyətdə yurdumuzdan ayrıldıq. Çox şükür ki, bu günləri görmək bizə nəsib oldu. Çox sevincliyəm. Bu günləri görməyimizə səbəb olan şəhidlərimizə Allah rəhmət eləsin. Dövlətimiz sağ olsun!"

# NAXÇIVANIN İNKİŞAFINDA YENİ MƏRHƏLƏ

Prezident İlham Əliyevin Naxçıvana son səfəri muxtar respublikanın inkişafında yeni mərhələnin başlanğıcı kimi dəyərləndirilir. Səfər proqramı özünün çoxistiqamətliliyi və əhatə dairəsi ilə diqqət çəkir.



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az




Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı, təhlükəsizliyinin təmini daim ölkə rəhbərliyinin diqqət mərkəzindədir. Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın avqustun 11-də muxtar respublikaya son səfəri də bölgə üçün mühüm siyasi, iqtisadi və sosial nəticələrlə yadda qaldı. Qeyd edək ki, bu, Prezident İlham Əliyevin Naxçıvana reallaşan 17-ci səfəridir. Bu statistika Naxçıvanın Azərbaycanın dövlət siyasətinin mərkəzində dayandığının daha bir əyani sübutudur.

**258 MİLYON MANATLIQ SƏRƏNCAM**

Səfərdən dərhal sonra Prezident İlham Əliyev Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında Sərəncam imzalayıb. Sərəncam özünün əhatəliliyi, çoxistiqamətliliyi ilə seçilir. Sənəddə Naxçıvanın Azərbaycan üçün mühüm əhəmiyyət daşıyan regional mərkəzlərdən biri olduğu önə çəkilir. Beləliklə, yeni reallıqlar fonunda Naxçıvan Muxtar Respublikasında 2026-2027-ci illərdə alternativ və bərpa olunan enerji mənbələrindən istifadənin genişləndirilməsi, yol, nəqliyyat və təhsil infrastrukturunun yenilənməsi, sosial-iqtisadi inkişafın daha da sürətləndirilməsi məqsədilə dövlət büdcəsindən ümumilikdə 258 milyon manat vəsait ayrılıb. Bu vəsait Gilançay üzərində ümumi gücü 15,6 MVt olan Tivi Su Elektrik Stansiyasında tikinti-quraşdırma işlərinin davam etdirilməsinə, ümumi uzunluğu 420 kilometr olan 2 kəndlərarası, 5 şəhər və 10 kəndin ərazisindəki avtomobil yollarının əsaslı təmirinə, Naxçıvan Dövlət Universitetində tələbələr üçün 1000 yerlik yataqxana kompleksinin tikintisinə, 640 yerlik beş yeni məktəbəqədər təhsil müəssisəsinin tikintisinə və digər layihələrə yönəldiləcək.

## Naxçıvanın təhlükəsizliyi prioritetdir

Dövlət başçısının son səfərini şərtləndirən ən mühüm amillərdən biri Naxçıvanın təhlükəsizliyinin və müdafiəsinin gücləndirilməsinin diqqət mərkəzində olması idi. Qeyd edək ki, coğrafi baxımdan Azərbaycanın əsas hissəsindən ayrı yerləşən muxtar respublikanın təhlükəsizliyi mövcud şərtlər daxilində mühüm əhəmiyyət kəsb edir. Uzun illərdir ki, uğurla həyata keçirilən ordu quruculuğu prosesi muxtar respublikanı da əhatə edib. Naxçıvanın müdafiə qabiliyyətinin gücləndirilməsi prioritet istiqamətlərdən biri kimi ön plana çıxıb. Dövlət başçısının da vurğuladığı kimi, hərbi hissələrin müasir texnika ilə təchiz olunması, komando qüvvələrinin formalaşdırılması bu istiqamətdə atılan addımların praktiki nəticələridir.





**DAVAMLI VƏ DAYANIQLI ENERJİ TƏMİNATI**

Naxçıvanın təhlükəsizliyinin təmini məsələsi tək müdafiə qabiliyyətinin gücləndirilməsi ilə ölçülmür. Buraya enerji təminatı, əhalinin məşğulluq səviyyəsinin artırılması, sosial təminat səviyyəsinin yüksəldilməsi, həmçinin iqtisadi-sənaye komplekslərinin yaradılması və sair amillər də daxildir. Hansı ki, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın muxtar respublikaya son səfər proqramında bütün amillərə xüsusi diqqət yetirildiyinin bir daha şahidi olduq.

İnkişaf strategiyasının ən mühüm dayaqlarından biri etibarlı və dayanıqlı enerji təminatıdır. 300 meqavat gücündə istilik elektrik stansiyasının inşasının nəzərdə tutulması bu planın tərkib hissəsidir. Hazırda Naxçıvanın generasiya gücü təqribən 200 meqavat təşkil edir. Yeni stansiya mövcud imkanların əhəmiyyətli dərəcədə artırılmasına şərait yaradacaq, eyni zamanda Naxçıvan həm də elektrik ixrac etmək potensialına yiyələnəcək. Hansı ki, ixrac gəlirləri bölgənin sosial-iqtisadi inkişafına mühüm töhfələr verəcək. Yüzlərlə meqavat gücündə Günəş elektrik stansiyalarının inşasının planlaşdırılması da hədəflərin miqyasının göstəricisidir.

## İqtisadi inkişaf, keyfiyyətli sosial xidmət

Səfərin əsas istiqamətlərindən biri də sənayeləşmənin gücləndirilməsi, sosial xidmət keyfiyyətinin, mənzil təminatının yaxşılaşdırılması idi. Naxçıvan Sənaye Parkının təməlinin qoyulması muxtar respublikanın iqtisadi strukturunda yeni istehsal sahələrinin yaranması baxımından mühüm addımdır. DOST Mərkəzinin istifadəyə verilməsi, sosial evlərin təməlinin atılması isə iqtisadi inkişafla yanaşı sosial sahələrin də diqqət mərkəzində olduğunu göstərir.

Naxçıvan həm də Azərbaycan tarixinə, mədəniyyətinə bəxş etdiyi maddi-mədəni irs nümunələri ilə məşhurdur. Bu irsin qorunması, gələcək nəsillərə ötürülməsi də Azərbaycanın ali rəhbərliyinin əsas prioritetlərindəndir. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Naxçıvana səfər çərçivəsində Möminə Xatun məqbərəsinin bərpası prosesi ilə tanış olublar. "Əcəmi seyrangahı" istirahət kompleksində memar Əcəmi Naxçıvaninin abidəsinin açılışına qatılıblar.



Beləliklə, Prezident İlham Əliyevin Naxçıvana 17-ci səfərinin nəticələri muxtar respublikanın sosial-iqtisadi inkişafında yeni mərhələnin başlanğıcı kimi dəyərləndirilə bilər. Bir çox prioritet istiqamətləri əhatələyən səfərin yekunları yaxın müddətdə Naxçıvanın inkişafında mühüm nəticələrin əldə olunmasında müstəsna rol oynayacaq. Naxçıvan təhlükəsiz, iqtisadi cəhətdən dayanıqlı və güclü, sosial baxımdan rahat və regional baxımdan daha sıx əlaqələndirilmiş məkana çevriləcək.

# REGİON ÜÇÜN YENİ NƏQLİYYAT ARTERİYASI



## Prezident İlham Əliyev: “Prezident Trampla söhbət əsnasında bu məsələyə də toxunuldu və hər iki tərəf əminliyini vurğuladı ki, bu önəmli nəqliyyat layihəsi mütləq və tezliklə icra ediləcək”.



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Prezident İlham Əliyevin Naxçıvanda Azərbaycan Televiziyasına müsahibəsi zamanı Zəngəzur dəhlizi ilə bağlı açıqlamaları, həmçinin Azərbaycanın davam edən prosesla bağlı sərgilədiyi mövqe diqqəti yenidən TRIPP layihəsinə yönəldib.

### “ZƏNGƏZUR DƏHLİZİNİN YARADILMASI BİZİM TƏŞƏBBÜSÜMÜZ OLUB”

Prezident İlham Əliyev müsahibəsində dəhlizlə bağlı aparılan danışıqlar, onun inkişaf prosesi ilə bağlı mühüm açıqlamalar verib. Dövlət başçısı qeyd edib ki, Zəngəzur dəhlizinin yaradılması bizim təşəbbüsümüz olub: “Azərbaycanın əsas hissəsini onun ayrılmaz hissəsi olan Naxçıvanla birləşdirmək bizim çoxdankı arzumuz olub. Biz bu hədəfə doğru inamla və çox böyük məharətlə addımlayırdıq, yaxınlaşırdıq və artıq yaxınlaşmışıq”.

Dövlət başçısı qeyd edib ki, İkinci Qarabağ müharibəsinin başa çatması ilə əlaqədar imzalanan üçtərəfli bəyanatda Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikasını birləşdirən dəhlizin yaradılması ilə bağlı bənd var: “Ancaq İkinci Qarabağ müharibəsindən keçən 5 il ərzində Zəngəzur dəhlizinin açılması ilə bağlı heç bir praktiki addım atılmamışdır. Dəfələrlə biz bu məsələni həm Rusiyaya, həm Ermənistana çatdırırdıq ki, vaxt gedir, bu bəyanat, onun vacib hissəsi icra edilmir və bu, dözülməz haldır. Müxtəlif vaxtlarda müxtəlif cavablar alırdıq, bu barədə çox danışmaq istəmirəm. Fakt odur ki, Ermənistan bunu hər cür uzatmağa çalışırdı. Rusiya tərəfi isə ya bunu təmin edə bilmirdi, ya da ki, hansısa başqa səbəblər var idi. Yəni fakt o idi ki, keçən ilin avqust ayına qədər məsələ dondurulmuş vəziyyətdə idi”.

## “Mütləq və tezliklə icra ediləcək”

Prezident qeyd edib ki, ABŞ bu məsələyə yaxınlaşmağa başlayanda Azərbaycanın bir neçə önəmli şərti var idi, o cümlədən Zəngəzur dəhlizi: “Nəticə etibarilə 2025-ci il avqustun 8-də tarixi Vaşinqton Zirvə Görüşündə bu məsələ öz həllini tapdı. TRIPP adını daşıyan bu layihənin icrasına artıq start verilmişdir. Bu yaxınlarda, üç gün bundan qabaq - avqustun 8-də Prezident Trampla söhbət əsnasında bu məsələyə də toxunuldu və hər iki tərəf əminliyini vurğuladı ki, bu önəmli nəqliyyat layihəsi mütləq və tezliklə icra ediləcək”.

### AZƏRBAYCAN ƏRAZİSİNDƏ GÖRÜLƏN İŞLƏR

Dövlət başçısı Zəngəzur dəhlizinin reallaşması ilə bağlı Azərbaycan ərazisində görülən işlərə də toxunub. Bildirib ki, bu gün Horadiz-Ağbənd avtomobil yolu demək olar ki, hazırdır: “Dəmir yolunun tikintisi də sürətlə gedir. Biz bu layihəni hər an sürətləndirə bilərik. Sadəcə olaraq, Ermənistan hissəsi hazır olmadığı üçün buna lüzum görmürük. Çünki investisiyaları, sərmayələri daha vacib və təcili məsələlərin həllinə yönəltmək üçün.

Ancaq istənilən halda gələn il dəmir yolu da Ermənistan sərhədinə gəlib çatacaq. O ki qaldı, Naxçıvan dəmir yolunun tikintisinə, hazırda işlər gedir. Mənim göstərişimlə Nəqliyyat Nazirliyi bu işlə məşğuldur. Azərbaycan Dəmir Yolları Ordubad istiqamətində inşa işlərinə başlamışdır və olmayan hissələr yenidən tikiləcək. İki hissə mövcud deyildi, hər ikisi də Ermənistan sərhədinə yaxındır - biri Ordubad, ikincisi isə Sədərək rayonlarının ərazisindədir. Hər iki hissənin uzunluğu o qədər də böyük deyil, təqribən 3-5-7 kilometrdir. Qalan dəmir yolu isə prinsipcə işlək vəziyyətdədir və bu gün də ondan istifadə edilir və edilə bilər. Sadəcə olaraq, bu gün mövcud olan dəmir yolunun yükaşırma qabiliyyəti 1,5 milyon tondur. İlkin mərhələ üçün Zəngəzur dəhlizinin və ümumiyyətlə, Şərq-Qərb dəhlizinin bir qolu olan bu yolun fəaliyyətə başlaması kifayətdir”.

### BEYNƏLXALQ KONSORSİUM YARADILA BİLƏR

Prezident İlham Əliyev Azərbaycanın bu məsələ ilə bağlı gözləntilərinə də toxunub. Bildirib ki, Bakı bu nəqliyyat dəhlizindən ən azı 15 milyon ton yükün daşınmasını istəyir. Onun üçün bu gün mövcud olan dəmir yolu yenidən qurulmalıdır, reabilitasiya edilməlidir: “Azərbaycan öz vəsaiti hesabına bu dəmir yolunu tam işlək və 15 milyon ton yükaşırma qabiliyyətinə malik olan vəziyyətə çatdıra bilər və çatdırmalıdır. Onu da bildirməliyəm ki, bir çox beynəlxalq qurum, bəzi ölkələr bu yola maraq göstərir, xüsusilə Azərbaycan dəmir yollarının Naxçıvan seqmentinə. Onlardan biri Avropa İttifaqıdır. Avropa İttifaqının nümayəndələri Naxçıvana ezam edilmişdir. Burada yerlərdə vəziyyətlə tanış olmuşlar və onlar da bu dəhlizin iştirakçıları olmaq istəyirlər.

Biz prinsip etibarilə buna etiraz etmirik. Bizim mövqeyimiz ondan ibarətdir ki, Azərbaycanın əsas hissəsində yerləşən ərazilərdə Azərbaycan Dəmir Yolları artıq bütün işləri yekunlaşdırır və burada hər hansı xarici iştiraka ehtiyac yoxdur. O ki qaldı, Naxçıvan dəmir yolunun reabilitasiyasına, burada prinsip etibarilə beynəlxalq konsorsium yaradıla bilər. Təbii ki, nəzarət paketi Azərbaycan dövlətinə məxsus olmaq şərti ilə beynəlxalq konsorsium investorlardan ibarət ola bilər və biz buna açığıq. Olmasa da, biz özümüz bu yolu çəkəcəyik. Bizim indi hansısa maliyyə problemlərimiz yoxdur. Olsaydı belə bu önəmli layihəyə hər zaman biz vəsait tapardıq. Amma biz hesab edirik ki, bu yolu beynəlxalq aktorlar və potensial yükgöndərənlər üçün daha cəlbedici etmək məqsədilə Naxçıvan dəmir yolu layihəsi məhz dediyim kimi, bir neçə şirkətdən ibarət konsorsium tərəfindən inşa edilə bilər”.



# UKRAYNADA SEÇKİ DİLEMMASI

Ukraynada müharibədən sonrakı ilk prezident seçkisi təkcə ölkənin yeni rəhbərini müəyyən etməyəcək. Bu seçki həm də Ukrayna cəmiyyətinin müharibədən sonra hansı istiqaməti seçəcəyini göstərəcək.



AZƏR NURİYEV



Ukraynada ölkənin siyasi gələcəyi beynəlxalq gündəmin əsas mövzularından birinə çevrilib. Xüsusilə prezident seçkilərinin nə vaxt keçiriləcəyi, Volodimir Zelenskinin yenidən namizəd olub-olmayacağı və ona əsas rəqibin kim olacağı ilə bağlı müzakirələr intensivləşir. Lakin hazırkı mərhələdə Ukraynada prezident seçkilərinin konkret tarixi müəyyən edilməyib.

### SEÇKİLƏR NİYƏ TƏXİRƏ SALINIR?

Ölkədə hərbi vəziyyət davam edir və Ukrayna parlamenti onun müddətini 2026-cı il oktyabrın 31-dək uzadıb. Mövcud qanunvericiliyə əsasən, hərbi vəziyyət dövründə prezident seçkilərinin keçirilməsi mümkün deyil. Bu isə o deməkdir ki, seçki ilə bağlı hazırkı rəqəmlər faktiki seçkinin nəticəsi deyil, hipotetik sorğuların göstəriciləridir. Buna görə də bugünkü reytinqlər gələcək seçkinin nəticəsinə dair yalnız ehtimal yaratmağa imkan verir. Ukraynadakı prezident seçkiləri Konstitusiyaya əsasən 2024-cü il martın son bazar günü keçirilməli idi. Lakin hərbi vəziyyət səbəbindən seçkilər təxirə salınmışdı. Həmin vaxtdan artıq iki ilə yaxın vaxt keçib. Demokratik seçki prosesinin zəruriliyi Ukrayna vətəndaşlarını getdikcə daha çox narahat edir.

### RƏY SORĞULARININ NƏTİCƏLƏRİ

Son sorğular göstərir ki, Volodimir Zelenski siyasi çəkisini tamamilə itirməyib. "Rating Group"un iyul ayında keçirdiyi sorğuya əsasən, prezident seçkisi həmin vaxt keçirilsəydi, respondentlərin 32 faizi Zelenskiyə səs verəcəyini bildirib. Keçmiş baş komandan Valeri Zalujnı 16 faizlə ikinci, Kirilo Budanov isə 11 faizlə üçüncü olub. Lakin başqa sorğular siyasi mənzərənin daha mürəkkəb olduğunu göstərir. İyulun 20-21-də keçirilmiş başqa bir sorğuda Zelenskinin hipotetik ilk turdakı göstəricisi 22,3 faiz, Zalujnının 14,9 faiz, keçmiş müdafiə naziri Mixaylo Fedorovun isə 13,4 faiz təşkil edib. Bu fərqlər mühüm bir nəticəyə gətirir: Zelenski birinci turda lider olaraq qala bilər, amma onun qələbəsi əvvəlcədən təmin olunmuş nəticə deyil. Ukrayna prezident seçkisində iki turlu sistemdən istifadə edir. Buna görə birinci turda heç bir namizəd mütləq səs çoxluğu əldə etməsə, ən çox səs toplayan iki namizəd ikinci turda mübarizə aparır.

## VOLODİMİR ZELENSKİYƏ ƏN CİDDİ ALTERNATİV

Ukraynanın keçmiş baş komandanı Valeri Zalujnı hazırda Zelenskiyə qarşı ən ciddi potensial siyasi alternativlərdən biri hesab olunur. Onun əsas üstünlüyü müharibə dövründə formalaşmış yüksək ictimai etimaddır. İyunun sonunda Zalujnı baş nazir vəzifəsini tutmaq təklifindən imtina edib və prezident seçkilərində mütləq namizəd olacağını açıqlayıb. Bir neçə gün əvvəl Ukraynanın Böyük Britaniyadakı səfiri Valeri Zalujnı ölkə Prezidenti Vladimir Zelenskiyə prezident seçkilərinin payızda keçiriləcəyi təqdirdə, namizədliyini irəli sürəcəyini deyib. Hələlik sözügedən məsələ ilə bağlı rəsmi məlumat yoxdur. 2026-cı ilin yayında yayılan məlumatlar göstərir ki, Zalujnı Ukraynada ən yüksək etimad göstəricilərinə malik siyasi fiqurlardan biri olaraq qalır. "Le Monde" onun etimad səviyyəsinin 73 faizə çatdığını və siyasi səhnədə Zelenskinin əsas potensial rəqiblərindən biri kimi qəbul edildiyini yazır. Bu, paradoksal vəziyyət yaradır: Zalujnı ilk turda Zelenskidən xeyli geridə qala bilər, amma ikinci turda daha geniş seçici koalisiyası yaratmaq imkanına malikdir.

Kirilo Budanov da siyasi mənzərədə diqqətdən kənarda qala bilməz. "Rating Group"un son sorğusunda Budanov 11 faizlə ilk turda üçüncü yerdədir. Bu, onun artıq sadəcə xüsusi xidmət orqanlarının rəhbəri kimi deyil, potensial milli siyasi lider kimi qəbul edildiyini göstərir.



### SİYASİ RƏQABƏTDƏ ÖNƏ ÇIXAN ADLAR

2026-cı ildə Ukrayna siyasətində diqqət çəkən digər ad Mixaylo Fedorovdur. Onun reytinqinin yüksəlməsi siyasi mənzərəyə üçüncü güclü namizədin daxil olduğunu göstərir. İyul sorğularında Fedorov bəzi göstəricilərə görə Zalujnıya çox yaxın nəticə göstərib. Bu, seçkinin nəticəsinə ciddi təsir göstərə bilər. Çünki Fedorov ayrıca siyasi elektorat formalaşdıra bilsə, Zelenski ilə Zalujnı arasında mümkün ikinci turun hesablamalarını dəyişə bilər. Başqa sözlə, gələcək seçki yalnız "Zelenski-Zalujnı" qarşıdurması olmaya bilər. Mövcud sorğuları ümumiləşdirəndə hipotetik birinci tur üçün belə mənzərə təsəvvür etmək mümkündür: əsas favoritlərdən biri Volodimir Zelenski, əsas rəqib Valeri Zalujnı, sürətlə yüksələn alternativ Mixaylo Fedorov, mühüm siyasi potensiala malik namizəd Kirilo Budanov.

## SEÇKİLƏR NƏ VAXT KEÇİRİLƏ BİLƏR?

Hazırkı hüquqi vəziyyət seçkinin 2026-cı ildə keçirilməsini ciddi şəkildə çətinləşdirir. Hərbi vəziyyət 31 oktyabr 2026-cı ilədək uzadılıb. Ukrayna Mərkəzi Seçki Komissiyasının rəhbərliyi də seçkinin hazırlanması üçün seçki reyestrinin yenilənməsi və digər texniki işlərin əhəmiyyətli vaxt tələb etdiyini bildirib. Buna görə daha real ssenari prosesin hərbi vəziyyətin aradan qaldırılmasından, təhlükəsizlik şəraitinin formalaşmasından və seçki mexanizmlərinin hazırlanmasından sonraya təsadüf etməsidir. Seçkiyə hazırlıq üçün müəyyən keçid dövrü lazım olacaq. Hazırkı hüquqi və təhlükəsizlik şəraitində seçkinin 2026-cı ildə keçirilməsi real görünmür. Bir məsələ artıq aydındır: Ukraynada müharibədən sonrakı ilk prezident seçkisi təkcə ölkənin yeni rəhbərini müəyyən etməyəcək. Bu seçki həm də Ukrayna cəmiyyətinin müharibədən sonra hansı istiqaməti – hərbi təhlükəsizlik, siyasi yenilənmə, Qərblə inteqrasiya, yoxsa daha geniş milli konsolidasiya xəttini seçəcəyini göstərəcək.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR
Tel: (+994 55) 457-02-03 / (+994 77) 447-47-17
E-mail: kaspiqazeti@kaspi.az

# KREDİT PORTFELİ BÖYÜYÜR, RƏQABƏT KƏSKİNLƏŞİR

Azərbaycan bankları 2026-cı ilin ilk yarısını mənfəətlə başa vurub. Ekspertlər bunu kredit portfelinin genişlənməsi, bank məhsullarına yüksək tələbat və effektiv risk idarəçiliyi ilə əlaqələndirirlər.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az




Azərbaycan bankları 2026-cı ilin ikinci rübü üzrə maliyyə nəticələrini açıqlamağa davam edir. İndiyədək açıqlanan hesabatlar göstərir ki, bütün banklar ikinci rübü mənfəətlə başa vurub. Bəs ilk yarımilin yekunları Azərbaycan bank sektorunun hazırkı vəziyyəti barədə nə deyir?

### "RƏQABƏT MƏNFƏƏT GÖSTƏRİCİLƏRİNƏ TƏSİR EDİR"

İqtisadi Resursların Öyrənilməsi Mərkəzinin sədri Ruslan Atakişiyevin sözlərinə görə, ilk yarımilin nəticələrinə əsasən, sistem əhəmiyyətli bankların göstəricilərinin qənaətbəxş olduğunu görürük. Ötən illə müqayisədə bəzi bankların reytinqində geriləmə müşahidə olunsa da, ümumilikdə sektor daxilində rəqabətin kəskinləşdiyi açıq-aydın görünür: "Nəticə etibarilə bəzi bankların göstəricilərində azalma, digərlərində isə əvvəlki dövrlərə nisbətən artım qeydə alınıb. Bank sektorunun altı aylıq göstəricilərində müşahidə edilən mənfəətlilik bilavasitə aktivlərin idarə olunması effektivliyindən asılıdır. Aktivlərin likvid sahələrə və gəlirlilik səviyyəsinə uyğun düzgün yerləşdirilməsi həlledici rol oynayır. Həmçinin bazar həcmi, cəlb olunan passivlərin miqdarı və müştərilərə təklif edilən rəqabətqabiliyyətli, əlverişli məhsullar mənfəətə birbaşa təsir göstərir".

### "ƏSAS MƏSƏLƏ PORTFELİN HƏCMİ DEYİL"

R.Atakişiyev bildirdi ki, portfeli milyardlarla ölçülən böyük bankların mənfəət həcmi daha yüksəkdir. Lakin əsas məsələ portfelin həcmi deyil, onun effektiv istifadəsidir: "Eyni həcmdə portfeli olub ondan səmərəsiz istifadə edən bankların mənfəət göstəriciləri daha aşağıdır. Bu prosesdə həm satış, həm də dəstək heyətinin peşəkarlığı məhsul satışına və mənfəətə ciddi təsir göstərən amillərdəndir. 2026-cı ilin ilk yarısında banklar tərəfindən ölkə iqtisadiyyatına ümumilikdə 32 milyard manata yaxın vəsait yatırılıb. Bu, iqtisadiyyatın genişlənməsinin və vəsaitlərin real sektorda effektiv idarə olunmasının göstəricisidir. Kredit portfelinin sahələr üzrə strukturuna diqqət yetirdikdə isə istehlak kreditlərinin payının artaraq 60%-ə çatdığını görürük. Bunun başlıca səbəbləri cəmiyyətdə istehlak kreditlərinə olan marağın yüksəlməsi və banklar üçün bu növ kreditlərin likvidlik baxımından daha əlverişli olmasıdır".

## "İlin ikinci yarısında da sabit artım gözlənilir"

Ekspertin fikrincə, hazırda bank sektorunun qarşısında duran əsas təhdidləri bazar, maliyyə və idarəetmə riskləri kimi təsnifləndirmək olar: "Azərbaycanda problemli kreditlərin həcmi təxminən 1,9-2% təşkil edir. 32 milyard manatlıq ümumi portfel fonunda bu göstərici kifayət qədər normaldır. Lakin sektoru gözləyən digər risk amilləri də mövcuddur. Bunlara bazar rəqabətinin artması, vəsait cəlbinin bahalaşması, müştərilərin ödəmə qabiliyyətinin dəyişmə ehtimalı, beynəlxalq aləmdə baş verən proseslər, milli valyutaya ola biləcək təzyiqlər, dövlət tərəfindən qəbul olunan makroiqtisadi qərarlar və yerləşdirmə alətlərinin gəlirliliyinin düzgün proqnozlaşdırılmaması aiddir. Rəqəmsallaşmanın sürətlənməsi ilə əlaqədar kibertəhlükəsizlik məsələləri və kiber risklər son dövrlər xüsusilə ön plana çıxıb. Bütün bu proseslərin fonunda Mərkəzi Bank müxtəlif istiqamətlərdə kompleks iş aparır. Əsas məqsəd bankların sərbəst rəqabət mühitində fəaliyyətini təmin etmək və eyni zamanda iqtisadi, maliyyə və monetar sabitliyi qorumaqdır. Mövcud tendensiyalara əsaslanaraq, ilin ikinci yarısında da təxminən analoji göstəricilərin və dinamikanın davam edəcəyi proqnozlaşdırılır".




### "KREDİT PORTFELİNİN GENİŞLƏNMƏSİ MƏNFƏƏTİ ARTIRIR"

Bank eksperti Emin Kərimov isə açıqlanan nəticələrə əsasən düşünür ki, həm korporativ, həm də özəl biznes seqmentində kredit yerləşdirilməsi dinamik şəkildə davam edib. Kredit satışlarının və bank gəlirlərinin artması bir tərəfdən maliyyə məhsullarına yüksək tələbin mövcudluğunu, digər tərəfdən isə bankların kredit siyasətini düzgün qurduğunu göstərir: "Ümumilikdə, sektor üzrə artım tendensiyası qorunur və əksər banklar ilk yarımili mənfəətlə başa vurublar. Kredit portfelinin genişlənməsi ilə yanaşı, problemli kreditlərin idarə olunmasında da irəliləyişlərin olduğunu göstərir. Borcalanların öhdəliklərini vaxtında yerinə yetirməsi bankların toksik aktivlərlə üzləşmə riskini azaldır, aktivlərin keyfiyyətini qoruyur və maliyyə sabitliyini gücləndirir. Hər iki rübün mənfəətlə yekunlaşması ölkədə makroiqtisadi sabitliyin, eləcə də real sektorun inkişafının göstəricisi hesab olunur. Kreditlərin həm yüksək həcmdə verilməsi, həm də vaxtında geri qaytarılması iqtisadi aktivliyin davam etdiyini təsdiqləyir".

E.Kərimovun sözlərinə görə, bankların gəlirlərinin artmasında əsas rol kredit portfelinin böyüməsi və qeyri-faiz gəlirlərinin genişlənməsidir: "Komissiya haqları, çarpaz satışlar və digər bank xidmətlərindən əldə olunan gəlirlər ümumi maliyyə nəticələrinə mühüm töhfə verir. Kredit portfeli artdıqca faiz gəlirləri də yüksəlir, əlavə məhsulların satışı isə bankların gəlir bazasını daha da genişləndirir. Depozitlərin orta hesabla 7-8 faizlə cəlb olunması, kreditlərin isə 8,9-9 faizdən başlayan dərəcələrlə təqdim edilməsi faiz marjasının yüksək olmadığını göstərsə də, kredit portfelinin həcmi gəlirlərin artmasını təmin edir. Mərkəzi Bankın məlumatına görə, mayın sonuna ümumi kredit portfeli 30,9 milyard manata çataraq əvvəlki ayla müqayisədə 0,9 faiz artıb. Kredit strukturunda biznes kreditləri üstün mövqeyini qoruyur. Belə ki, biznes kreditlərinin həcmi 16,4 milyard manat, istehlak kreditlərinin həcmi isə 9,7 milyard manat təşkil edib. Bu göstəricilər sahibkarlıq fəaliyyətinin, istehsal və xidmət sektorlarının inkişaf etdiyini, biznes subyektlərinin maliyyə resurslarına tələbatının artdığını göstərir".

### "RİSKLƏR NƏZARƏT ALTINDADIR"

Ekspert hesab edir ki, kredit bazarında risklər hər zaman mövcud olsa da, hazırda onlar idarəolunan səviyyədədir: "Banklar kredit qərarları qəbul edərkən bazar, valyuta və makroiqtisadi riskləri nəzərə alır, sığorta mexanizmləri və daxili limitlər vasitəsilə mümkün itkiləri minimuma endirməyə çalışırlar. Mərkəzi Bankın tətbiq etdiyi tənzimləyici mexanizmlər, o cümlədən istehlak kreditləri üzrə DTI əmsalının 45 faizə endirilməsi və kredit limitlərinin məhdudlaşdırılması da maliyyə sabitliyinin qorunmasına xidmət edir. İlin ikinci yarısı üçün də gözləntilər müsbətdir. Adətən yay mövsümündən sonra iqtisadi aktivlik artır, şirkətlər və vətəndaşlar planlaşdırdıqları layihələri ilin sonunadək reallaşdırmağa çalışırlar. Bu isə kredit resurslarına tələbatı yüksəldir. Uçot dərəcəsində və qlobal iqtisadi şəraitdə kəskin dəyişiklik baş verməditi təqdirdə, ilin sonunadək bank sektorunda sabit artım tempinin davam edəcəyi, xüsusilə oktyabr-noyabr aylarında kredit aktivliyinin daha da güclənəcəyi gözlənilir".

# VALYUTA BAZARINDA DOLLAR BOLLUĞU

**Dollara tələbin kəskin azalmasının səbəbləri ilə bağlı yanaşmalar fərqlidir. Ekspertlərin bir qismi bunu idxalın azalması, manata inamın güclənməsi ilə əsaslandırır. Digər qisim isə daha çox iqtisadi fəallıq amilini önə çəkir.**



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az



Ölkədə xarici valyutaya tələbin azalması son dövrlərdə valyuta bazarında müşahidə olunan əsas tendensiyalardan birinə çevrilib. Mərkəzi Bankın məlumatları da bunu təsdiqləyir. Belə ki, 2026-cı ilin ilk altı ayında keçirilən valyuta hərraclarında 757 milyon ABŞ dolları satılıb. Halbuki 2025-ci ilin eyni dövründə bu göstərici 2,7 milyard dollar, 2024-cü ilin ilk altı ayında isə 3,5 milyard dollar təşkil edib. Bəs valyutaya tələbin azalması hansı amillərlə bağlıdır?

### "İDXALIN AZALMASI DA ÖZ SÖZÜNÜ DEYİR"

İqtisadçı-ekspert Namiq Hüseynov isə valyuta bazarında hazırkı vəziyyəti "dollar bolluğu" kimi xarakterizə edir. Onun sözlərinə görə, xarici valyutaya tələbin azalmasında milli valyutaya inamın artması və idxalın azalması mühüm rol oynayır: "Həqiqətən də hazırda Azərbaycanın valyuta bazarında tələb təklifdən geri qalır, "dollar bolluğu"dur. Təkcə bu ilin I yarısında nağd xarici valyutanın alışı satışını 500 milyon dollara yaxın üstələyib. Son nəticədə Azərbaycan Mərkəzi Bankı manatın məzənnəsini sabit saxlamaq, onun bahalaşmasının qarşısını almaq üçün valyuta bazarına alışyönlü müdaxilə etməli olub, yəni bazardan təxminən 2 milyard dollar alaraq valyuta ehtiyatlarını artırıb. Valyuta hərraclarında satışın azalmasının – ölkədə dollara tələbatın azalmasının səbəblərindən biri milli valyutaya inamın güclənməsi, dollarlaşmanın zəifləməsi ilə bağlıdır. Müşahidələr göstərir ki, əhali əlindəki dollar kütləsini satır və bunun bir hissəsini manat əmanəti kimi banklara yerləşdirir. Son nəticədə əmanətlərin dollarlaşması 25%-ə düşüb. Digər səbəb ölkəyə idxalın azalmasıdır. Dövlət Gömrük Komitəsinin açıqladığı statistikaya görə, yanvar-iyun aylarında azalma 28%-ə yaxın olub və bu da istər-istəməz dollara tələbatı azaldıb".

### "MANATIN MƏZƏNNƏSİ İLƏ BAĞLI CİDDİ RİSK GÖRÜNMÜR"

N.Hüseynov hesab edir ki, valyuta bazarında yaranmış vəziyyət manatın məzənnəsi ilə bağlı ciddi risklərin olmadığını göstərir. Onun fikrincə, cari əməliyyatlar balansındakı profisit də bu sabitliyi dəstəkləyən əsas amillərdən biridir: "Mövcud vəziyyət manatın məzənnəsi ilə bağlı risklərin olmamasından xəbər verir. Çox güman ki, bu tendensiya yaxın aylarda qalacaq. Məsələn, ötən il Azərbaycanın cari əməliyyatlar balansının profisiti 3,5 milyard dollar təşkil edib. AMB bu il bu rəqəmin 6 milyard dollardan, gələn il isə 5 milyard dollardan çox olacağını proqnozlaşdırır. Bu məbləğdə profisit makroiqtisadi dayanıqlılıq baxımından mühüm müsbət amil hesab olunur. Azərbaycan manatının məzənnəsinin sabit qalması həm yerli, həm də xarici investorlar üçün mühüm siqnaldır".

### "BİZNES YENİ İNVESTİSİYALARLA BAĞLI EHTİYATLI DAVRANIR"

İqtisadçı-ekspert Asif İbrahimov deyir ki, valyuta bazarında rəqəmlərin müsbət görünməsi iqtisadiyyatın real vəziyyətinin tam mənzərəsini əks etdirmir. Onun sözlərinə görə, əsas məsələ dollara tələbin azalmasının səbəblərini düzgün müəyyənləşdirməkdir: "Mərkəzi Bankın açıqladığı rəqəmlər ilk baxışdan müsbət təsir bağışlayır. Valyuta bazarında təklifin son 18 ay ərzində tələbi üstələməsi və Mərkəzi Bankın valyuta hərraclarında satış həcminin 3,5 milyard ABŞ dollarından 757 milyon dollara qədər azalması bazarda sabitlik görüntüsü yaradır, amma iqtisadi reallığın tam mənzərəsini əks etdirmir. Əsas sual budur: dollara tələbat niyə azalıb? Bunun səbəbi iqtisadiyyatın sürətlə inkişaf etməsi, yoxsa biznes aktivliyinin zəifləməsidir?"

A.İbrahimov valyutaya tələbin azalmasının iqtisadi aktivliyin zəifləməsi ilə bağlı ola biləcəyini qeyd edir. Ekspert hesab edir ki, yüksək istehsal, investisiya və idxal artımı şəraitində xarici valyutaya tələbin də artması gözləniləndir: "Əgər ölkədə istehsal, investisiya və idxal həcmləri yüksək templə artırsa, xarici valyutaya tələbin də artması təbii olardı. Bu gün isə valyutaya tələbin azalmasının əsas səbəblərindən biri özəl sektorun investisiya fəallığının zəifləməsi, iri istehsal layihələrinin məhdudluğu və biznesin yeni investisiyalarla bağlı ehtiyatlı davranmasıdır. Digər mühüm məsələ ondan ibarətdir ki, Azərbaycanın valyuta bazarında təklif hələ də əsasən neft-qaz gəlirləri hesabına formalaşır. Qeyri-neft sektorunun ixracı artsa da, ümumi valyuta daxilolmalarında onun payı hələ də həlledici səviyyədə deyil. Bu isə o deməkdir ki, mövcud sabitlik daha çox enerji bazarındakı əlverişli qiymətlərdən asılıdır".

### "VALYUTA BAZARINDA BALANS SÜRƏTLƏ DƏYİŞƏ BİLƏR"

Ekspert hesab edir ki, Mərkəzi Bankın valyuta bazarına müdaxiləsinin azalması müsbət göstərici olsa da, bu fakt bazarın tam sərbəst fəaliyyət göstərdiyi anlamına gəlmir. O, uzunmüddətli sabitliyin əsas şərtinin iqtisadiyyatın şaxələndirilməsi olduğunu vurğulayır: "Mərkəzi Bankın bazara daha az müdaxilə etməsi müsbət haldır. Ancaq bu, bazarın tam sərbəst işlədiyi anlamına gəlmir. Azərbaycanda manatın məzənnəsi inzibati idarə olunan rejimdə formalaşır və onun sabitliyi böyük ölçüdə Dövlət Neft Fondunun valyuta satışlarından asılıdır. Buna görə də bazarda sabitliyi yalnız pul siyasətinin uğuru kimi təqdim etmək düzgün yanaşma deyil. Ən narahatedici məqam iqtisadiyyatın struktur problemlərinin həll də qalmasıdır. Xarici investisiyaların qeyri-neft sektoruna cəlbi istənilən səviyyədə deyil, ixrac kifayət qədər şaxələndirilməyib, yüksək texnologiyalı məhsulların ixracı məhduddur. Bu problemlər həll olunmadan valyuta bazarındakı müvəqqəti rahatlığı uzunmüddətli iqtisadi uğur kimi qiymətləndirmək olmaz. Yaxın aylarda mövcud vəziyyət davam edə bilər. Lakin bu, ilk növbədə dünya bazarında neftin qiymətindən, geosiyasi risklərdən və enerji ixracından əldə olunan gəlirlərdən asılı olacaq. Əgər bu amillər dəyişərsə, valyuta bazarında da balans sürətlə dəyişə bilər".

Ekspert hesab edir ki, hökumət və Mərkəzi Bank diqqəti yalnız valyuta bazarında sabitliyin qorunmasına deyil, bu sabitliyin iqtisadiyyatın real sektorunda istehsalın, ixracın və investisiyaların artımı hesabına təmin edilməsinə yönəltməlidir: "Əks halda, biz rəqəmlərdə sabitlik görəcəyik, lakin real iqtisadi inkişaf gözlənilən sürətlə baş verməyəcək. Əsl uğur Mərkəzi Bankın bazara nə qədər az dollar satması deyil, ölkənin qeyri-neft sektorunun nə qədər çox valyuta qazanmasıdır".



Namiq Hüseynov

Asif İbrahimov

# KAPİTAL BAZARINDA PARADOKS

Repo əməliyyatlarının azalması qiymətli kağızlar bazarının ümumi dövriyyəsini aşağı salsa da, korporativ seqmentdə aktivlik artır. Mütəxəssislər bazarın əsas probleminin həcmdən çox, struktur və likvidlik məsələləri olduğunu bildirirlər.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az




Azərbaycanın qiymətli kağızlar bazarında cari ilin ilk yarısının yekunları məlum olub. Dövriyyənin böyük hissəsinin (86,2%) qısamüddətli repo əməliyyatlarından ibarət olduğu bazarda ötən illə müqayisədə 32,1 faizlik azalma qeydə alınıb və ümumi əməliyyat həcmi 25 milyard 19 milyon manat təşkil edib. Həcmin kiçilməsinə baxmayaraq, əməliyyatların (əqdlərin) sayında 2,3 dəfəlik sıçrayış baş verib ki, bunun da mütləq əksəriyyəti korporativ qiymətli kağızların payına düşür. Qiymətli kağızlar bazarı niyə kiçilir və bunun əsas səbəbləri nələrdir?

### "AZALMA BAZARIN ZƏİFLƏMƏSİ DEMƏK DEYİL"

"Crypto Consulting" MMC-nin direktoru və UNEC Biznes Məktəbinin müəllimi Elnur Quliyevin sözlərinə görə, Azərbaycanın qiymətli kağızlar bazarında bu ilin ilk yarısında əməliyyatların həcminin 32,1 faiz azalaraq 25 milyard manata düşməsi ilk baxışda bazarda ciddi zəifləmə təsiri yaradır: "Lakin mən bu göstəricini birbaşa kapital bazarına marağın azalması kimi qiymətləndirməzdim. Çünki ümumi dövriyyənin 86 faizdən çoxu repo əməliyyatlarının payına düşür və məhz bu seqmentdə həcmin azalması ümumi statistikaya ciddi təsir edib. Digər tərəfdən, bazarda bağlanan əqdlərin sayı 2,3 dəfə artıb. İlkin bazarda əqdlərin sayının 15 dəfədən çox yüksəlməsi də göstərir ki, bazarda əməliyyat aktivliyi tamamilə zəifləməyib. Sadəcə, əməliyyatların sayı artdığı halda, onların orta həcmi əvvəlki dövrlə müqayisədə daha aşağı olub. Burada həm struktur, həm də statistik faktorun olduğunu nəzərə almaq lazımdır. Amma bu rəqəmlər Azərbaycanın kapital bazarının əsas problemini də göstərir. Bazarın böyük hissəsi hələ də real sektorun uzunmüddətli maliyyələşdirilməsi ilə deyil, repo əməliyyatları ilə formalaşır. Şirkətlərin istiqraz və səhm bazarından maliyyələşmə imkanları genişlənməli, əhalinin və institusional investorların kapital bazarında iştirakı artırılmalıdır".



Elnur Quliyev

## "Əsas problem bazarın strukturudur"

E.Quliyev hesab edir ki, digər mühüm məsələ təkrar bazarın likvidliyidir. İnvestor aldığı qiymətli kağızı sonradan rahat şəkildə sata bilmirsə, həmin alətin cəlbediciliyi də azalır: "Buna görə yalnız yeni qiymətli kağızların emissiyasını artırmaq kifayət deyil, onların aktiv şəkildə alınıb-satıldığı likvid bazar da formalaşdırılmalıdır. Bunun üçün şirkətlərin kapital bazarına çıxışının sadələşdirilməsi, istiqraz və səhm emissiyalarının stimullaşdırılması, yeni investisiya alətlərinin yaradılması, market-meyker mexanizminin gücləndirilməsi və fərdi investorların bazara çıxışının asanlaşdırılması vacibdir. Maliyyə savadlılığı və bazara inam məsələsini də xüsusi qeyd etmək istəyirəm. İnsan qiymətli kağızın necə işlədiyini, gəlirinin haradan formalaşdığını və hansı riskləri daşıdığını bilmirsə, onun bazara daxil olması çətinləşir. Ona görə də maarifləndirmə yalnız ümumi məlumat kampaniyaları ilə məhdudlaşmamalı, investorun real qərar qəbul etməsinə kömək edən praktik mexanizmlərə çevrilməlidir. Əsas problem bazarın həcmi deyil, onun strukturudur. Növbəti mərhələdə əsas hədəf kapital bazarını şirkətlər üçün bank kreditinə alternativ uzunmüddətli maliyyələşmə mənbəyinə, vətəndaşlar üçün isə əlçatan və etibarlı investisiya platformasına çevirmək olmalıdır. Bazarın real inkişaf göstəricisi də məhz bu olacaq".

### "RƏQƏMLƏRİN ARXASINDA REPO AMİLİ DAYANIR"

İqtisadçı Elçin Əkbərov bildirir ki, təkcə repo əməliyyatlarında 9,6 milyard manatlıq azalma baş verib və ümumi bazar dövriyyəsindəki geriləmənin böyük hissəsi məhz bununla izah olunur. Repo bazarındakı dəyişikliklər bank sistemindəki likvidlik, pul bazarındakı faizlər, iri maliyyə institutlarının vəsaitə ehtiyacı, eləcə də Mərkəzi Bankın pul siyasəti əməliyyatları ilə bağlı ola bilər: "Digər maraqlı məqam isə odur ki, kapital bazarında əqdlərin sayı 2 dəfədən çox artsa da, ümumi dövriyyə azalıb. Bu, bazarda əvvəlki illə müqayisədə daha çox əməliyyat aparıldığını, lakin onların orta məbləğinin əhəmiyyətli dərəcədə azalaraq 2,32 milyon manatdan 692 min manata düşdüyünü göstərir. Vacib məqamlardan biri də odur ki, azalma repo əməliyyatlarının sayında deyil, onların orta məbləğində baş verib. Bu isə iri həcmli repo əməliyyatlarının azaldığına işarə edir".



Elçin Əkbərov

## Kapital bazarında fərqli tendensiyalar

E.Əkbərov bildirdi ki, inkişaf etmiş ölkələrdə kapital bazarının əsas funksiyası şirkətlərin uzunmüddətli maliyyələşməsidir. Azərbaycanda isə bazarın böyük hissəsini hələ də qısamüddətli repo əməliyyatları təşkil edir, təkrar bazarın likvidliyi və institusional investorların payı məhduddur: "Hesabat dövründə dövlət qiymətli kağızları üzrə əməliyyatların həcmi 2,7 dəfə azalsa da, bunu investor etimadının zəifləməsi kimi qiymətləndirmək düzgün olmaz. Bu, Maliyyə Nazirliyinin borclanma qrafiki, emissiya təqvimi və digər texniki amillərlə də bağlı ola bilər. Bununla yanaşı, ümumi bazar dövriyyəsi azalsa da, korporativ qiymətli kağızlar üzrə əməliyyatların həcmi 23,7 faiz artaraq 1 milyard 935,3 milyon manata çatıb. Bu, bazarın ən mühüm müsbət siqnallarından biridir və şirkətlərin alternativ maliyyələşmə alətlərinə marağının artdığını göstərir. Deməli, mövcud vəziyyəti "bazar kiçilir" kimi deyil, iri həcmli likvidlik əməliyyatlarının azalması və korporativ seqmentdə aktivliyin yüksəlməsi ilə müşayiət olunan struktur dəyişikliyi kimi qiymətləndirmək daha doğru olar".

### "YENİ MALİYYƏLƏŞMƏ ALƏTLƏRİ BAZARI CANLANDIRA BİLƏR"

İqtisadçının sözlərinə görə, Azərbaycanın kapital bazarının inkişafını məhdudlaşdıran bir sıra fundamental problemlər qalmaqdadır: "İlk növbədə, iri və orta şirkətlərin əksəriyyəti maliyyələşmə üçün hələ də bank kreditlərinə üstünlük verir. Bir çox şirkət səhm və istiqraz bazarına çıxmağa maraq göstərmir. Açıq səhm bazarının məhdud olması da bunun nəticəsidir". E.Əkbərov qeyd etdi ki, kapital bazarının inkişafına təkan verə biləcək addımlar sırasında yeni emitentlərin bazara çıxmasının stimullaşdırılması, audit, hüquqi xidmət və listinq xərclərinin bir hissəsinin subsidiyalaşdırılması, dövlətə məxsus iri şirkətlərin səhmlərinin bir hissəsinin IPO vasitəsilə bazara çıxarılması xüsusi əhəmiyyət daşıyır: "Vətəndaşların rahat şəkildə investisiya hesabı aça və qiymətli kağızlarla əməliyyat apara biləcəyi rəqəmsal platformalar genişləndirilməli, market-meyker institutu gücləndirilməlidir. Kapital bazarının inkişafına təkan verə biləcək yeniliklərdən biri də 24 yanvar 2027-ci ildən qüvvəyə minəcək "Kraudfandinq haqqında" Qanundur. Bu qanun kiçik və orta sahibkarlıq subyektləri üçün bank kreditlərinə alternativ maliyyələşmə mənbəyi yaradan, eyni zamanda fərdi investorların kapital bazarında iştirakını genişləndirə bilər".

# QONAQ DA AZ, GƏLİR DƏ

**Hotellərimizin gəlirlərində yenidən geriləmə müşahidə edilir. Turizmçilər hesab edirlər ki, bu göstəricilər təkcə turist sayındakı dəyişikliklə deyil, həm də bazardakı ümumi tendensiyalarla əlaqəli ola bilər.**



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Azərbaycanda bu ilin ilk yarısında hotel və mehmanxana tipli obyektlərdə həm gecələmələrin sayında, həm də gəlirlərdə azalma qeydə alınıb. Dövlət Statistika Komitəsinin açıqladığı son rəqəmlər turizm sektorunda müşahidə olunan dinamikanı yenidən müzakirəyə çevirib. Turizmçilər hesab edirlər ki, bu göstəricilər təkcə turist sayındakı dəyişikliklə deyil, həm də bazardakı ümumi tendensiyalarla əlaqəli ola bilər.

Hotel sektorundakı azalmanın əsas səbəblərini öyrənərkən beynəlxalq turizm bazarındakı proseslərlə yanaşı, daxili turizmə təsir edən amillərin də mənzərədə rol oynadığını öyrəndik.

### RƏQƏMLƏR REALLIĞI ƏKS ETDİRİR

Azərbaycan Hotellər Assosiasiyasının (AHA) İdarə Heyətinin sədri Eldar Əlimuradov açıqlanan rəqəmlərin real olduğunu təsdiqlədi: "Biz icra orqanıyıq. Qonaq olanda xidmət göstəririk. Əlbəttə, azalmanı müşahidə edirik. Komitənin açıqladığı rəqəmlər də realdır".

### REGİON ÖLKƏLƏRİNƏ UDUZURUQ

Turizmçi Ceyhun Aşurov bildirir ki, ölkəmizə gələn turistlərin sayında 6 faiz, gecələmələrin sayında 8.3 faiz azalmanın qeydə alınması həm də hotel gəlirlərinə müvafiq olaraq öz təsirini göstərir: "Əlbəttə, biz azalmanın xarici amillərlə bağlı olduğunu bilirik. Bu, daha çox ölkə xaricindən gələnlərin sayında müşahidə olunur. Xüsusən cənub regionunda baş verən qeyri-stabillik, hava məkanının bağlı olması kimi amillər Körfəz ölkələrindən gələn turistlərin sayının da azalmasına təsir etmiş oldu".

Turizmçinin sözlərinə görə, region hotellərində doluluq səviyyəsi daxili bazar hesabına müəyyən qədər aktiv olsa da, ümumilikdə ölkəyə gələn turistlərin sayının rəsmi olaraq azalması hotellərdə doluluq səviyyəsinə təsir edib: "Xüsusən Bakı şəhərində yerləşən hotellərdə doluluq səviyyəsi 30 faizə qədər aşağı düşüb. Biz hazırda turizm mövsümümün pik nöqtəsindəyik. Amma əvvəlki illərlə müqayisədə böyük hərəkətlilik müşahidə etmirik". Ekspert hesab edir ki, gecələmə sayının artırılması üçün ölkəyə daha çox turist axınının artmasına nail olmalıyıq: "Düşünürəm ki, region ölkələri ilə müqayisədə bizim ölkəmizdə hotellərin və ictimai-iaşə müəssisələrinin qiymətləri kifayət qədər rəqabətlidir. Sadəcə, biz regiondakı ölkələrə nəqliyyat xərclərində uduzuruq. Xaricdən Azərbaycana gəlməyin baha olması və turizm paketində 40 faizə qədər xərcləri əhatələməsi ölkəyə gələn turist axınını zəiflədir. Biz bu istiqamətdə elə də rəqabətli davrana bilmirik. Bunun üçün bizim Bakıdan əlavə, regionlardakı hava limanlarımız daha səmərəli işləməlidir. Azərbaycan xarici turistlər üçün daha əlçatan və maraqlı olmalıdır. Təbii ki, ölkəmiz turizm destinasiyası kimi kifayət qədər tanınır və maraq kəsb edir. Amma ölkəyə gəlmə imkanları məhdud olduğuna görə region ölkələrinə uduzuruq. Bu da nəticədə turist axınını azaltmış olur. Xüsusən nəzərə alaq ki, baş verən hadisələr bizim ənənəvi turist seqmentimizdən turistlərin sayını azaldıb. Yeni turizm seqmentlərindən Azərbaycana gəlməni artırmaq üçün ilk növbədə birbaşa uçuşların sayı artmalı, vizaların sadələşdirilməsi və ləğvi prosesi davamlı olmalıdır. Hərçənd viza ilə bağlı proseslər gedir. Ölkə istiqamətində uçuşların daha səmərəli olmasına çalışmalıyıq. Hansısa formada nəqliyyat xərclərinin azaldılmasını düşünməliyik".










## Turizm destinasiyalarının tanıdılmasında zəiflik

Turizm üzrə mütəxəssis, "Kənd Yaşıl Turizmin İnkişafına Dəstək" İctimai Birliyinin sədri Qəhrəman Yusupov hesab edir ki, gecələmə sayında azalmanın səbəbi əcnəbi turistlərin sayında azalma ilə birbaşa əlaqəlidir: "Əcnəbi turistlər ölkəmizə gəldikdə əksər hallarda yerləşmə obyektlərinin xidmətlərindən istifadə edirlər. Turistlərə təqdim olunan xidmət çeşidinin məhdud olması gecələmələrin sayına da təsir göstərir". Turizm mütəxəssisi həmçinin azalmanı quru sərhədlərinin bağlı olması və təyyarəyə bilet qiymətlərinin yüksək olması, turoperatorların əksərən fərdi işləməsi, xarici turoperatorlarla əlaqələrin zəifliyi, ölkənin turizm destinasiyalarının tanıdılmasında çatışmazlıqlarla əlaqələndirir: "Dövlət Turizm Agentliyi bu işlərə yalnız öz əməkdaşlarını deyil, müxtəlif turizm növlərində işləyən turoperatorları, QHT-ləri cəlb etməlidir". Q.Yusupov hesab edir ki, əyalətlərdə də turistlərin gəlişinə hazır olmaq lazımdır: turoperatorlar yerli sakinlərlə əvvəlcədən razılaşaraq musiqili bayram, kulinariya bayramı, yerli miqyaslı tanınmış sənətkarlarla görüşlərin keçirilməsini planlaşdırmalıdır".


Qəhrəman Yusupov
Ceyhun Aşurov

### HOTELLƏRDƏ TURİSTLƏRİN QEYDİYYATI APARILMIR?

Q.Yusupovun fikrincə, hotellərin gəlirlərinin azalması həftəiçi turist səfərlərinin az olması ilə bağlıdır: "Həftəiçi günlərdə hotellərimizdə boş yerlərin sayı çox olur. Həftəsonu isə hotel rəhbərliyi qiymətləri maksimal dərəcədə qaldıraraq əvvəlki günlərin əvəzini çıxmaq istəyir. Bu da tur qiymətlərinin kəskin qalxmasına səbəb olur. Bu səbəbdən əyalətlərdə qonaq evlərinin xidmətlərindən istifadə edilməsinə üstünlük verilməlidir. Gəlirlərin azalmasının digər bir səbəbi hotellərdə turistlərin qeydiyyatının aparılmaması ola bilər".

Turizm mütəxəssisi hesab edir ki, gecələmə sayını artırmaq üçün hotellər də özlərini tanıtmalıdırlar: "Bunun üçün bir sıra imkanlar var. Həftəiçi turistlərin cəlb edilməsi üçün qiymətlərdə endirim kampaniyasının keçirilməsi lazımdır. Daha uzun müddət qalanlara əlavə pulsuz xidmətlər təqdim edilməlidir. Ekskursiya, transfer, tərcüməçi, yerli kulinariya ilə tanışlıq və sair xidmətlərin göstərilməsi həyata keçirilməlidir. Bir neçə gün ərzində yerli ərzaqla yerli kulinariya kampaniyasının keçirilməsi effektli olar. Bu kampaniyada yerli hotellər və qidalanma obyektləri ilə yanaşı yerli milli parklar, qoruqlar, muzeylər, idman kompleksləri, digər maraqlı təşkilatlar iştirak etməlidir".

# SOCAR ÖTƏN İLİN MALİYYƏ HESABATINI AÇIQLAYIB




SOCAR dövlət büdcəsinə ən çox vergi ödəyən və ölkə üzrə ən iri işəgötürən olaraq birinci yerdə qərarlaşır. Şirkətin ödədiyi vergilər ölkənin sosial-iqtisadi inkişafına mühüm töhfə verir, insan kapitalının inkişafına xidmət edir.

2025-ci ildə Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) gəlirləri 86,3 milyard manat, ümumi mənfəəti 12,6 milyard manat təşkil edib. Bu barədə "Report"a SOCAR-dan məlumat verilib.

**UĞURLU FƏALİYYƏT DAVAM ETDİRİLİB**

Bildirilib ki, 2025-ci il ərzində qlobal enerji bazarları geosiyasi qeyri-müəyyənliklər, enerji təhlükəsizliyi məsələlərinin aktuallaşması, eləcə də təbii qaza artan tələbin təsiri altında olub. SOCAR isə strateji inkişaf prioritetlərinə uyğun olaraq, ötən ildə də beynəlxalq aktivlər portfelini genişləndirib, enerji dəyər zəncirində mövqeyini daha da gücləndirib, əməliyyat səmərəliliyinin artırılması və xərclərin optimallaşdırılması istiqamətində görülən tədbirlər nəticəsində fəaliyyətini uğurla həyata keçirib.

**ƏMƏLİYYAT FƏALİYYƏTİNDƏN MƏNFƏƏT ARTIB**

2025-ci il ərzində SOCAR strateji əhəmiyyətli investisiya və biznes əməliyyatlarını davam etdirib. Bu əməliyyatlara "Bahar" və "Qum-Dəniz" yataqlarında 80 % payın alınması, İsrailin Aralıq dənizi hövzəsində yerləşən "Tamar" qaz yatağında 10 % effektiv iştirak payının əldə edilməsi, Türkiyədə yeni neft-kimya və enerji layihələrinin inkişafı, rəqəmsal infrastruktur və petrokimya sahələrində strateji investisiyaların həyata keçirilməsi, eləcə də qaz ixracı və beynəlxalq tərəfdaşlıqların genişləndirilməsi daxildir.

Əməliyyat fəaliyyətindən mənfəət əvvəlki dövrlə müqayisədə 80 % artaraq 5,2 milyard manata çatıb, xalis mənfəəti isə təxminən 3 milyard manat olub. Şirkətin 2025-ci ildə EBITDA-sı (Faizlər, vergilər və amortizasiyadan əvvəl mənfəət) 10,9 milyard manat təşkil edib. Bu göstərici 2024-cü il ilə müqayisədə 26 % artıb. SOCAR-ın gəlirlərinin əsas hissəsi xam neft, neft və kimya məhsulları və təbii qazın satışından əldə edilib.

## VƏSAİTLƏRİN HƏRƏKƏTİNDƏ DƏ 136 % ARTIM ƏLDƏ OLUNUB

Qeyd edək ki, əməliyyat fəaliyyəti nəticəsində mənfəətdə yaranan artım, həmçinin pul vəsaitlərinin hərəkətinə təsir edib. Belə ki, əməliyyat fəaliyyəti nəticəsində yaranan pul vəsaitlərinin hərəkətində də 136 % artım əldə olunub.

SOCAR ölkənin strateji enerji şirkəti olmaqla yanaşı, dövlət büdcəsinə ən çox vergi ödəyən və ölkə üzrə ən iri işəgötürən olaraq birinci yerdə qərarlaşır. SOCAR-ın ödədiyi vergilər ölkənin sosial-iqtisadi inkişafına mühüm töhfə verir, şirkətin genişmiqyaslı investisiya və sosial layihələri isə həm iqtisadiyyatın şaxələndirilməsinə, həm də insan kapitalının inkişafına xidmət edir.

SOCAR tərəfindən 2025-ci ildə dövlətə 3,8 milyard manat məbləğində dividendlər, dövlətə ayırmalar, vergilər və sosial xərclər kimi ödənişlər edilib. Ümumiyyətlə, 2021-2025-ci illər ərzində isə SOCAR tərəfindən dövlətə cəmi 15,9 milyard manat məbləğində dividendlər, dövlətə ayırmalar, vergilər və sosial xərclər kimi ödənişlər olunub. Bununla yanaşı, qeyd olunan 2021-2025-ci illər ərzində SOCAR-a dövlət tərəfindən cəmi 1,6 milyard manat həcmində vəsait yatırılıb.

Qeyd edək ki, SOCAR-ın 31 dekabr 2025-ci il tarixinə konsolidasiya edilmiş maliyyə hesabatına nüfuzlu beynəlxalq audit şirkəti olan "Ernst & Young Holdings (CIS) B.V." tərəfindən dəyişilməmiş (təmiz) rəyi verilib.




# Mina partlayışlarından 363 nəfər xəsarət alıb

İkinci Qarabağ müharibəsi başa çatdıqdan sonra (10.11.2020-ci il tarixdən etibarən) Ermənistan tərəfindən işğaldan azad edilmiş ərazilərimizin minalarla çirkləndirilməsi nəticəsində 436 nəfər zərər çəkib. Bu barədə "Report"a Baş Prokurorluğun mətbuat xidmətindən məlumat verilib.

Bildirilib ki, onlardan 73 nəfər həlak olub, 363 nəfər isə müxtəlif dərəcəli xəsarətlər alıb: "Təəssüf hissi ilə bildiririk ki, işğaldan azad edilmiş ərazilərdə minaların partlaması nəticəsində insan tələfatı və xəsarətlərlə nəticələnən hadisələr baş verməkdə davam edir. Baş Prokurorluq tərəfindən aidiyyəti dövlət qurumları ilə birgə belə hadisələrin hər biri üzrə zəruri tədbirlər görülür və ictimaiyyətə mütəmadi məlumat verilir".

Azərbaycan Prokurorluğu tərəfindən mina hadisələri ilə bağlı hər bir fakt üzrə qanunvericiliyin tələblərinə uyğun olaraq araşdırmalar aparılır, hadisələrin bütün halları, o cümlədən partlayışların səbəb və şəraiti müəyyən edilir: "Mina təhlükəsinin aradan qaldırılması işğaldan azad edilmiş ərazilərdə insanların təhlükəsizliyinin təmin olunması, ərazilərin bərpası və dayanıqlı məskunlaşma baxımından mühüm əhəmiyyət daşıyır.

Vətəndaşları və həmin ərazilərə səfər edən şəxsləri bir daha yalnız müəyyən edilmiş təhlükəsiz marşrutlardan istifadə etməyə, xəbərdarlıq nişanlarına və aidiyyəti dövlət qurumlarının tövsiyələrinə ciddi əməl etməyə çağırırıq".



Kaspi

Təsisçi
**Global Media Group**

Baş redaktor
**İlham Quliyev**

Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Xanım Aydın, Sevinc Abbasova, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**

Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
**Lalə Qasımova, İlham İsmayılov, Samirə Əliyeva**
Yayım və satış meneceri
**Vadim Manafov**

Ünvan
**Bakı, Səməd Vurğun 34, AF Mall**
**Telefon: (012) 525 03 31**
**kaspiqazeti@kaspi.az**

Qazet "Azərbaycan" nəşriyyatında çap olunub.
Sifariş: 1059
Tiraj: 2000
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

# BOŞANIRAM, ƏL ÇƏKİN!

**Son beş ildə 60 və daha yuxarı yaşda olan şəxslər arasında boşanmaların sayı nəzərəçarpacaq dərəcədə artıb. Mütəxəssislər bildirirlər ki, bu qərar bəzən yaşlılıqda yaranan problemdən deyil, 30-40 il əvvəl başlayıb illərlə təxirə salınan ailədaxili konfliktlərdən qaynaqlanır.**



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az



Boşanma daha çox gənc ailələrin qarşılaşdığı problem kimi qəbul edilir. Lakin Azərbaycanda son illərin statistikası göstərir ki, nikahın pozulması yalnız gənc yaşlarla məhdudlaşmır. 60 və daha yuxarı yaşda olan insanlar arasında da boşanmaların sayı artır. 2021-ci ildə 60 və daha yuxarı yaşda 563 kişi boşanıb. 2022-ci ildə bu göstərici 528 nəfərə ensə də, sonrakı illərdə yenidən artaraq 2023-cü ildə 693, 2024-cü ildə 761, 2025-ci ildə isə 838 nəfərə çatıb. Beləliklə, 2021-ci illə müqayisədə 2025-ci ildə bu yaş qrupunda boşanan kişilərin sayı 275 nəfər və ya 48,8 faiz artıb. Qadınlar arasında da oxşar dinamika müşahidə olunur. 2021-ci ildə 60 və daha yuxarı yaşda 293 qadın boşanıb. 2022-ci ildə bu rəqəm 274, 2023-cü ildə 366, 2024-cü ildə 405, 2025-ci ildə isə 431 nəfər olub. Bu isə beş il ərzində 138 nəfər və ya 47,1 faiz artım deməkdir. Bəs 30-40 illik evlilikdən sonra cütlüklər niyə ayrılmaq qərarına gəlirlər? İnsan 60 yaşına qədər boşanmayıbsa, niyə məhz bu yaşdan sonra belə qərar verir?




### PSİXOLOJİ DÖNÜŞ NÖQTƏSİ

Psixoloq Günel Hacızadənin sözlərinə görə, 60 yaşdan sonra boşanmanı "uşaqlar getdi, ər-arvad bir-birinə dözə bilmədi" kimi izah etmək düzgün deyil. Araşdırmalar göstərir ki, boşanmanın əsası çox vaxt münasibətlərdə daha əvvəldən mövcud olan problemlər təşkil edir: "Boş yuva və pensiya dövrü isə bəzən sadəcə həmin problemləri daha görünən edir. Cütlük 30-35 il ərzində uşaqlara görə, maddi səbəblərdən, "el-aləm nə deyər?" düşüncəsi ilə münasibətdəki ciddi problemlərə dözə bilər. Bəzən isə "onsuz da bu yaşdan sonra nə dəyişəcək?" düşüncəsi insanı münasibətdə qalmağa sövq edir. Lakin 60 yaşda insan qarşısında tamam başqa zaman perspektivi görür. "Mənim qarşıda hələ 20-30 il həyatım ola bilər. Mən bu illəri də belə keçirmək istəyirəmmi?", - bu, çox güclü psixoloji dönüş nöqtəsidir".




G.Hacızadənin fikrincə, uzunmüddətli emosional laqeydlik, xəyanət, alkoqol asılılığı, təhqir, fiziki və ya psixoloji zorakılıq, həddindən artıq nəzarət, maliyyə problemləri, ailə daxilində bərabərsiz yük, eləcə də tərəflərin illər ərzində bir-birindən uzaqlaşması kimi problemlər uzun müddət davam edə bilər. Yaşlıların boşanmalarına dair araşdırmalarda da zorakılıq, xəyanət, asılılıq və artıq bərabərsizliyə dözməmək kimi amillərin mühüm rol oynadığı göstərilir: "Qalan ömrümü belə yaşamaq istəmirəm" düşüncəsi isə bu yaşda boşanmanın əsas psixoloji məqamlarından biridir. Bu düşüncə 60 yaşdan sonra daha güclü hiss edilir. Çünki gənc insanın qarşısında "hələ çox vaxtım var" düşüncəsi dayanır. 60 yaşlı insan isə həyatın və zamanın məhdudluğunu daha real hiss edir".

Sosioloq Naib Niftəliyev isə bildirir ki, boşanmaların səbəbini yalnız statistik rəqəmlər əsasında müəyyənləşdirmək mümkün deyil. Onun sözlərinə görə, burada obyektiv sosioloji səbəblər, sosial-iqtisadi motivlər, eləcə də 20-30 il ərzində davam etmiş mənəvi və psixoloji konfliktlər nəzərə alınmalıdır: "Münasibətlərdə davamlı uzaqlaşma, qarşılıqlı anlaşılmazlıq, tərəflərin emosional baxımdan bir-birini tamamlamaması və yalnız məişət-iqtisadi səbəblər üzərində qurulan ailə münasibətləri müəyyən müddətdən sonra ciddi problemlərə gətirib çıxara bilər. Uşaqların böyüməsindən sonra ailədə "boş yuva" mərhələsinin yaranması da bu problemləri daha görünən edir".




## "Yaş artdıqca insanın həyata baxışı dəyişir"

Sosioloqun fikrincə, insanların gənc yaşlarında boşanmamasının arxasında mənzil və əmlak məsələləri, iqtisadi asılılıq, qohumların münasibəti, ictimai qınaq və ailənin dağılması qorxusu kimi amillər dayanır. Yaş artdıqca isə insanın həyata baxışı dəyişir: "Gənc yaşlarda insan özünü daha çox valideyn, həyat yoldaşı və ailə üzvü kimi görür. Övladlar müstəqil həyata keçdikcə isə insanın öz şəxsi ehtiyaclarına diqqət yetirmək zərurəti artır. Sağlamlığa, rahatlığa və həyat keyfiyyətinə daha çox əhəmiyyət verilir. Bu mərhələdə insan həyatının qalan hissəsini necə yaşamaq istədiyini daha çox düşünməyə başlayır. Bu baxımdan boşanma bəzi insanlar üçün çıxış yolu və ya bir növ xilas vasitəsi kimi qəbul olunur".

### "BƏZƏN BOŞANMA 60 YAŞDA YOX, 30 YAŞDA BAŞLAYIR"

N.Niftəliyev hesab edir ki, 60 yaşdan yuxarı insanların birgə yaşaması gözlənilən olsa da, ciddi konflikt və qarşılıqlı zərər olduğu halda ayrılıq qərarını anlamaq mümkündür: "Bu, 60 yaşda da, 70 yaşda da baş verə bilər. İnsan müəyyən yaşdan sonra rahatlığa, normal ünsiyyətə və sakit həyata daha çox ehtiyac duyur. Bu baxımdan 60 yaşdan sonra boşanma qərarını bəzən 30-40 yaşlarında başlayan problemlərin gecikmiş nəticəsi kimi qiymətləndirmək olar. Bu, bir növ gecikmiş dəyərləndirmə prosesidir".

N.Niftəliyevin sözlərinə görə, cəmiyyətin 60 yaşdan sonra boşanmaya münasibətində də müəyyən dəyişikliklər müşahidə olunur: "El-aləm nə deyər?" düşüncəsi əvvəlki qədər güclü deyil. Lakin ictimai rəyin təsiri tamamilə aradan qalxmayıb. Xüsusilə kiçik icmalarda, konservativ sosial mühitdə və geniş qohumluq əlaqələrinin güclü olduğu ailələrdə bu təsir hələ də qalır".

### ARTIMIN ÖZÜNDƏN ÇOX, SƏBƏBLƏRİ ARAŞDIRILMALIDIR

Sosioloq hesab edir ki, 2021-2025-ci illərdə 60 yaşdan yuxarı şəxslər arasında boşanmaların artımına yalnız narahatlıq prizmasından yanaşmaq doğru deyil. Onun fikrincə, əsas məsələ bu tendensiyanın səbəblərini araşdırmaq, ailədaxili problemlərin həlli üçün düzgün modellər formalaşdırmaq və sağlam ailə münasibətlərinin təşviqinə sistemli yanaşmaqdır: "Bu baxımdan məsələ yalnız statistik göstərici deyil, həm də sosial-hüquqi və sosial-etik maarifləndirmə mövzusudur. Ailə qurarkən olduğu kimi, boşanarkən də bütün nəticələri ölçüb-biçmək vacibdir".

# YAYLAQLAR DARALIR, SÜRÜLƏR AZALIR

Yerli istehsalın müxtəlif problemlərlə üzləşdiyi bir vaxtda Gürcüstandan Azərbaycana diri qoyun idxalının əhəmiyyətli dərəcədə artması diqqət çəkir. Ekspertlər bunun səbəbsiz olmadığı qənaətindədirlər.



SEVİNC ABBASOVA

Azərbaycan tarixən qoyunçuluğun ən geniş yayıldığı ölkələrdən biri olub. Uzun illər bu sahə kənd əhalisinin əsas məşğulluq istiqamətlərindən biri olmaqla yanaşı, ölkənin ət və yun məhsullarına olan tələbatının ödənilməsində mühüm rol oynayıb. Lakin son illər mənzərə dəyişməyə başlayıb. Yerli istehsalın müxtəlif problemlərlə üzləşdiyi bir vaxtda Gürcüstandan Azərbaycana diri qoyun idxalının əhəmiyyətli dərəcədə artması diqqət çəkir. Gürcüstanın Milli Statistika İdarəsinin məlumatına görə, bu ilin yanvar-iyun aylarında Azərbaycana 1,3 milyon ABŞ dolları dəyərində diri qoyun ixrac edilib. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 2,5 dəfə çoxdur. Ümumilikdə isə Gürcüstan bu ilin ilk altı ayında xarici bazarlara 11,7 milyon ABŞ dolları dəyərində diri qoyun ixrac edib ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə üç dəfə çoxdur. Ən böyük ixrac Səudiyyə Ərəbistanına həyata keçirilib. Sonrakı yerlərdə isə Qətər, Azərbaycan, Liviya və Küveyt qərarlaşıb.

Rəsmi statistika da ölkədə xırdabuynuzlu heyvanların sayının son illər azalma tendensiyası nümayiş etdirdiyini göstərir. Dövlət Statistika Komitəsinin məlumatına görə, 2026-cı il yanvarın 1-nə Azərbaycanda qoyun və keçilərin sayı 6 milyon 757,8 min baş olub. Bu, 2025-ci ilin eyni dövrü ilə müqayisədə 138,7 min baş və ya 2 faiz azdır. Son beş ilin statistikası da azalma meylinin davam etdiyini göstərir. Belə ki, 2021-ci ildə ölkədə 8 milyon 89,7 min baş, 2022-ci ildə 7 milyon 899,7 min baş, 2023-cü ildə 7 milyon 751,7 min baş, 2024-cü ildə 7 milyon 60,6 min baş, 2025-ci ildə isə 6 milyon 896,5 min baş qoyun və keçi qeydə alınıb. Beləliklə, son beş ildə ölkədə xırdabuynuzlu heyvanların sayı təxminən 1,3 milyon baş azalıb.

### AZƏRBAYCANDA QOYUNÇULUĞA MARAĞIN AZALMASININ SƏBƏBLƏRİ

Mütəxəssislərin fikrincə, Azərbaycanda qoyunçuluğun inkişafına mane olan səbəblər müxtəlifdir. Otlaq və yaylaq sahələrinin azalması, iqlim dəyişiklikləri, yem və baytarlıq xidmətlərinin bahalaşması, eləcə də sahənin gəlirliliyinin aşağı düşməsi ənənəvi heyvandarlığın inkişafına mənfi təsir göstərir.

## YEM VƏ SAXLANMA XƏRCLƏRİ ARTIB

Liberal İqtisadçılar Mərkəzinin sədri Akif Nəsirlinin sözlərinə görə, son illərdə qoyunçuluğun əvvəlki cəlbediciliyini itirməsinin bir sıra iqtisadi və struktur səbəbləri var. Əsas problemlərdən biri yem və saxlanma xərclərinin əhəmiyyətli dərəcədə artmasıdır. Digər mühüm amil otlaq sahələrinin azalmasıdır. Qoyunçuluq geniş otlaq sahələri tələb edən fəaliyyət növü olduğundan, otlaq imkanlarının məhdudlaşması fermerləri əlavə yem almağa məcbur edir. Bu isə istehsalın maya dəyərini yüksəldir. Bununla yanaşı, kənd yerlərində əmək qabiliyyətli əhalinin bir hissəsinin şəhərlərə üz tutması da qoyunçuluğun inkişaf tempinə mənfi təsir göstərən amillərdəndir.

Ekspert qeyd edib ki, Gürcüstanda bəzi bölgələrdə geniş təbii otlaq sahələrinin mövcudluğu, istehsal xərclərinin nisbətən aşağı olması və ixrac imkanlarının genişlənməsi qoyunçuluğun inkişafına müsbət təsir göstərib.

### İSTEHSALDAN SATIŞADƏK ƏLVERİŞLİ MÜHİT

A.Nəsirli hesab edir ki, kəndlilərin qoyunçuluğa marağını yenidən artırmaq mümkündür. Bunun üçün ilk növbədə iqtisadi baxımdan cəlbedici mühit yaradılmalıdır. Onun sözlərinə görə, yem xərclərinin azaldılması istiqamətində tədbirlər görülməli, otlaq sahələri qorunmalı və səmərəli idarə olunmalı, kiçik fermerlər üçün güzəştli kredit və subsidiya mexanizmləri genişləndirilməli, damazlıq işi gücləndirilməli, baytarlıq xidmətlərinin əlçatanlığı yaxşılaşdırılmalıdır.

Ekspert əlavə edib ki, fermerlərin məhsullarını daha sərfəli qiymətə sata bilmələri üçün satış və emal infrastrukturunun inkişaf etdirilməsi də vacibdir. İstehsalçı məhsulunu bazara asan çıxara, gəlir əldə edə və gələcəyinə əmin ola bilsə, qoyunçuluğa maraq da artacaq. Onun fikrincə, bu sahənin inkişafı yalnız subsidiya ilə deyil, istehsaldan satışadək bütün zəncir üzrə əlverişli iqtisadi mühitin formalaşdırılması ilə mümkündür.

### TURİZM YAYLAQLARI HEYVANDARLIĞIN ƏLİNDƏN ALIR

İqtisadçı-ekspert Rauf Qarayev isə hesab edir ki, Azərbaycanda qoyunçuluğun üzləşdiyi əsas problemlərdən biri yaylaq və qışlaq sahələrinin getdikcə azalmasıdır. Onun sözlərinə görə, qoyunçuluğun inkişafı üçün ilk növbədə geniş otlaq sahələrinin mövcudluğu vacibdir. Əvvəllər bu baxımdan daha əlverişli şərait olsa da, son illər müxtəlif səbəblərdən həmin imkanlar tədricən məhdudlaşır. Ekspert bildirib ki, bunun əsas səbəblərindən biri iri torpaq sahələrinin müxtəlif məqsədlərlə istifadəyə verilməsidir. Onun sözlərinə görə, geniş ərazilərin fərdi istifadəyə keçməsi yaylaqların sahəsini kiçildir və nəticədə heyvandarlıq üçün yararlı otlaq fondu azalır.

R.Qarayev qeyd edib ki, iqlim dəyişiklikləri də vəziyyəti ağırlaşdıran əsas amillərdəndir. Kəskin hava şəraiti və quraqlığın artması otlaq sahələrində yem ehtiyatını azaldır. Bu problem Azərbaycanda Gürcüstanla müqayisədə daha qabarıq hiss olunur və istehsal xərclərinin artmasına səbəb olur.

İqtisadçının sözlərinə görə, yaylaq sahələrinin azalmasına təsir edən digər amillərdən biri də turizmin inkişafıdır. Son illər insanlar turizm potensialı yüksək olan ərazilərdə torpaq sahələri alır, fərdi evlər tikərək onları kirayəyə verirlər. Nəticədə vaxtilə yaylaq kimi istifadə olunan bəzi ərazilər artıq başqa məqsədlər üçün istifadə edilir.

### YEM, DƏRMAN VƏ MÜTƏXƏSSİS ÇATIŞMAZLIĞI

Ekspert vurğulayıb ki, qoyunçuluğun inkişafına mənfi təsir göstərən digər amillərdən biri yem və baytarlıq xidmətlərinin yüksək qiymətidir. Onun sözlərinə görə, ölkəyə idxal olunan yemlər vergidən azad edilsə də, fermerlər üçün hələ də baha başa gəlir. Dərman preparatlarının yüksək qiyməti də sahənin gəlirliliyinə mənfi təsir göstərir.

İqtisadçı həmçinin baytarlıq xidmətlərinin keyfiyyəti ilə bağlı problemlərin də mövcud olduğunu bildirib. Onun sözlərinə görə, bəzi hallarda ölkədə fəaliyyət göstərən baytarların yeni və mürəkkəb xəstəliklərin müalicəsi üçün kifayət qədər bilik və təcrübəsi olmur. Bu səbəbdən iri heyvandarlıq təsərrüfatları bəzən xarici ölkələrdən mütəxəssislər dəvət etməyə məcbur qalırlar ki, bu da əlavə xərc yaradır.



Akif Nəsirli



# KƏNDLİDƏN ALICIYA GEDƏN YOL DƏYİŞİR

Bakıda 17 bazar və yarmarka fəaliyyət göstərir. Əhali sayı dəfələrlə çox olmasına baxmayaraq, bazar sayında digər iqtisadi rayonlar paytaxtdan öndədir.



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Dövlət Statistika Komitəsinin məlumatına görə, 2025-ci ilin sonunda Bakıda 17 bazar və yarmarka fəaliyyət göstərib. Bu göstərici əvvəlki illə müqayisədə bir vahid azalsa da, paytaxtın sürətlə artan əhalisi və istehlak tələbi fonunda bu sayın kifayət edib-etmədiyi sual doğurur. Diqqətçəkən məqamlardan biri odur ki, bəzi iqtisadi rayonlarda fəaliyyət göstərən bazar və yarmarkaların ümumi sayı Bakıda qeydə alınan göstəricini üstələyir.

Bəs paytaxtda fəaliyyət göstərən 17 bazar və yarmarka əhalinin tələbatını qarşılamaq üçün kifayət edirmi?

Statistik göstəricilər də maraqlı mənzərə ortaya qoyur. Komitənin məlumatına əsasən, iqtisadi rayonlar arasında ən çox bazar və yarmarka Qazax-Tovuzda (14), Mərkəzi Aranda (13) və Şirvan-Salyanda (11) fəaliyyət göstərir. Lənkəran-Astara və Şəki-Zaqatalada hərəsində 10, Quba-Xaçmazda isə 9 bazar və yarmarka qeydə alınıb.

### "BAZAR SAYI ƏHALİNİN EHTİYACLARINA UYĞUN OLMALIDIR"

Kənd təsərrüfatı üzrə ekspert Xaliq Məmmədov "Kaspi" qəzetinə açıqlamasında bildirdi ki, Bakı əhalisinin və turist axınının artması ərzaq məhsullarına tələbatı da yüksəldir. Bu baxımdan paytaxtda fəaliyyət göstərən bazar və yarmarkaların sayı əhalinin ehtiyaclarına uyğun olmalıdır: "Bakı böyük meqapolisdir və daim inkişaf edir. Həm daimi, həm də müvəqqəti yaşayan insanların, eləcə də turistlərin sayı artır. Buna görə də ərzaq və kənd təsərrüfatı məhsullarına tələbat yüksək olaraq qalır. Qida məhsullarının satışı həyata keçirilən pərakəndə və topdansatış məntəqələri müasir standartlara uyğun fəaliyyət göstərməlidir. Eyni zamanda, ölkəmizdə bazar və yarmarka mədəniyyəti formalaşıb. İnsanlar təzə məhsulları birbaşa fermerdən almağa üstünlük verirlər. Bu, fermerlə istehlakçı arasında birbaşa əlaqə yaradır, qiymətlərin daha münasib olmasına və alıcı üçün daha sərfəli alış imkanlarının formalaşmasına şərait yaradır. Fermer məhsulunu birbaşa sata bilmədikdə həm özü, həm də istehlakçı itirir. Belə hallarda vasitəçilərin sayı artır ki, bu da son qiymətə təsir göstərir".



Foto: Tabdıq Abdullayev/Global Photostock

## "Paytaxtda yeni fermer bazarları yaradılmalıdır"

Ekspert hesab edir ki, paytaxtda əhalinin artımı fonunda yeni fermer bazarlarının yaradılması həm istehsalçılar, həm də istehlakçılar üçün daha əlverişli şərait yarada bilər: "Meyvəli Ticarət Kompleksi hazırda istehsalçıların məhsullarının satış şəbəkələrinə çatdırılmasında mühüm rol oynayır. Gələcəkdə iri market şəbəkələrinin fermerlərlə birbaşa əməkdaşlıq etməsi də həm istehsalçılar, həm də istehlakçılar üçün faydalı ola bilər".

### "MÜASİR PƏRAKƏNDƏ TİCARƏTİN İNKİŞAFI NƏZƏRƏ ALINMALIDIR"

İqtisadçı Rauf Qarayev isə hesab edir ki, bazarların sayından daha çox satış infrastrukturunun dəyişməsi və müasir pərakəndə ticarətin inkişafı nəzərə alınmalıdır. Mütəxəssis bildirir ki, regionlarda və müxtəlif iqtisadi zonalarda bazarların sayının çox olmasına baxmayaraq, fermerlərin əsas hədəfi hələ də paytaxt bazarlarıdır: "Bunun başlıca səbəbi Bakının həm əhalisinin sayına, həm də gəlir səviyyəsinə görə digər regionları üstələməsidir. Bu amil fermer üçün məhsulunu daha sürətlə və gəlirli satmaq imkanı yaradır. Digər tərəfdən, bir çox halda fermerlər Bakıya özləri gəlmir. Müəyyən vasitəçilər yerlərdə məhsulu fermerdən birbaşa alaraq öz logistika vasitələri ilə Bakıya gətirir və satışını təşkil edirlər".

### "BAZARLAR SIXIŞDIRILIR"

Ekspert bildirir ki, sovet dövründən fəaliyyət göstərən iri bazarlar son illər müasir pərakəndə satış şəbəkələri ilə rəqabət aparır. Bu bazarlar yavaş-yavaş sıxışdırılır və onların yerini həyatımızın ayrılmaz hissəsinə çevrilən



modern meyvə-tərəvəz dükanları və marketləri alır: "Bu meylin yaranmasının əsas səbəbi bazarlara gələn kəndlilərin sayının az olmasıdır. Məhsulu bazarlarda onsuz da alverçilər satır. Dövlət tərəfindən kəndliyə yerhaqqı ödəmədən satış etmək üçün müəyyən günlər ayrılsa da, kəndli günlərlə orada gözləməkdənsə, məhsulunu birbaşa vasitəçiyə verib kəndinə qayıtmağa üstünlük verir. Bununla yanaşı, müasir marketlərdə təmin olunan kondisionerli və sərin mühit məhsulların yay aylarında günün altında qalıb xarab olmasının qarşısını alır, həm alıcı, həm də satıcı üçün maksimum komfort yaradır. Əvvəllər alıcılar 10-20 qəpik ucuz məhsul tapmaq üçün kilometrlərlə yol qət edərək iri bazarlara gedirdilərsə, indiki şəraitdə nəqliyyat xərcini, yol tıxacını və zaman itkisini hesablayaraq məhəllə marketindən alış-veriş etməyi daha sərfəli hesab edirlər. Həmçinin bu marketlərdə günün sonuna doğru tez xarab ola biləcək məhsulların qiymətinin avtomatik aşağı düşməsi də sakinlərin ucuz məhsul almasına şərait yaradır".

## Alıcı üçün rahatlıq, fermer üçün çətinlik



Xaliq Məmmədov

R. Qarayev bildirir ki, Bakıda pərakəndə satış nöqtələrinin (məhəllə marketlərinin) sayı əhalinin gündəlik tələbatını ödəmək baxımından tam yetərlidir və istehlakçının rahatlığı üçün bütün lazımi şərait var: "Lakin ənənəvi iri bazarların sıxışdırılması və kəndlinin şəhər bazarlarında birbaşa iştirak edə bilməməsi daxili bazarda vasitəçilərdən asılılığı artırır. Bu səbəbdən daxili bazarda rəqabət mühitinin qorunması və fermerlərin öz məhsullarını rahat reallaşdırması üçün mexanizmlərin təkmilləşdirilməsi vacibdir".



Rauf Qarayev

# GÜNVURMA, İNFARKT, YOXSA İNSULT?



Yay aylarında ən çox rast gəlinən çətinliklərdən biri səhhəti qəfil pisləşən şəxsdə bunun adi günvurma, infarkt, yoxsa insult kimi həyati təhlükə yaradan vəziyyət olduğunu vaxtında müəyyənləşdirməkdir. Mütəxəssislər hər üç halın ayrı-ayrı əlamətləri olduğunu qeyd edirlər.



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Son günlər ölkə ərazisində müşahidə olunan anomal isti hava şəraiti təkcə gündəlik rahatlığımızı pozmur, həm də sağlamlığımız üçün ciddi risk yaradır. Yay aylarında həddindən artıq maye itkisi, kondisionerli mühitdən birbaşa günəşin altına çıxmaq və ya uzun müddət açıq havada qalmaq sadəcə yorğunluqla nəticələnmir. Mütəxəssislər bildirir ki, bu amillər infarkt və insult kimi həyati təhlükə yaradan kəskin halların yaranma riskini də artırır. Bəs termometrlərin yüksək göstəriciləri orqanizmimizdə hansı gizli prosesləri tətikləyir? Biz bu təhlükədən necə qoruna bilərik?

### HƏR ÜÇ HALIN ÖZÜNƏMƏXSUS İLKİN ƏLAMƏTLƏRİ VAR

Yay aylarında ən çox rast gəlinən çətinliklərdən biri səhhəti qəfil pisləşən şəxsdə bunun adi günvurma, infarkt, yoxsa insult kimi həyati təhlükə yaradan vəziyyət olduğunu vaxtında müəyyənləşdirməkdir. Məsələ ilə bağlı "Kaspi"yə danışan terapevt Gülşən Məmmədova bildirib ki, hər üç halın özünəməxsus ilkin əlamətləri var və onları bir-birindən fərqləndirmək mümkündür: "Günvurma adətən uzun müddət günəş şüaları altında qaldıqdan sonra inkişaf edir. Onun əsas əlamətləri yüksək bədən hərarəti, baş ağrısı, güclü halsızlıq, ürəkbulanma, qusma, başgicəllənmə, dərinin isti və quru olmasıdır. İnfarktın əsas fərqləndirici əlaməti isə döş sümüyü arxasında yaranan sıxıcı və ya yandırıcı ağrıdır. Bu ağrı sol qola, çənəyə, boyuna və ya kürəyə yayıla bilər. İnsult isə adətən qəfil yaranan nitq pozğunluğu, üzün bir tərəfinin sallanması, qol və ya ayaqda zəiflik, keyimə, tarazlığın pozulması, eləcə də görmənin qəfil pisləşməsi ilə xarakterizə olunur".




### "ŞƏKƏRLİ QAZLI İÇKİLƏR VƏ ALKOQOL SUSUZLUĞU ARADAN QALDIRMIR"

Mütəxəssis vurğulayır ki, isti havalarda sağlamlığı qorumağın əsas şərtlərindən biri orqanizmin su balansını düzgün saxlamaqdır. Terapevtin sözlərinə görə, mayeyə olan tələbat hər bir insanın yaşından, bədən çəkisindən, fiziki aktivliyindən və sağlamlıq vəziyyətindən asılı olaraq dəyişir: "Sağlam yetkin insanlar üçün isti havalarda adətən gündə 2-3 litr maye qəbul etmək tövsiyə olunur. İntensiv fiziki fəaliyyət və ya güclü tərləmə zamanı isə bu ehtiyac daha da arta bilər. Əksər hallarda adi içməli su kifayət edir. Şəkərli qazlı içkilər və alkoqol susuzluğu aradan qaldırmır, əksinə, orqanizmdə maye itkisini artıra bilər".

### "YAŞ ARTDIQCA..."

Həkim bildirir ki, yaş artdıqca orqanizmin istiliyi tənzimləmə qabiliyyəti zəifləyir, eyni zamanda susuzluq hissi azalır: "Bu səbəbdən yaşlı insanlar susadıqlarını hiss etmədən qısa müddətdə ağır susuzlaşma və istilik zərbəsi ilə üzləşə bilərlər. Artıq çəkili şəxslərdə isə ürək-damar sisteminə düşən yük artır. Yüksək temperatur şəraitində ürək orqanizmi soyutmaq üçün daha intensiv işləməyə məcbur olur. Bu isə arterial təzyiqdə dəyişikliklərə, ürək ritminin pozulmasına və kəskin ürək-damar hadisələrinin riskinin artmasına səbəb ola bilər. Xüsusilə hipertoniya, şəkərli diabet və xroniki ürək xəstəlikləri olan şəxslər bu dövrdə daha diqqətli olmalıdırlar".

### "BƏZƏN BİR STƏKAN SU HƏYAT XİLAS EDƏR"

Terapevt bildirir ki, yay ayında daha yüngül həzm olunan qidalara üstünlük verilməlidir: "Rasionda tərəvəz, meyvə, tam taxıllı məhsullar, balıq və digər yağsız zülal mənbələrinə daha çox yer verilməlidir. Duzlu, yağlı və qızardılmış yeməklər isə kəskin məhdudlaşdırılmalıdır. Çünki bu cür qidalar həm arterial təzyiqin yüksəlməsinə, həm də ürəyə düşən yükün artmasına səbəb olur".

Mütəxəssis bildirir ki, hər hansı kəskin hal baş verdikdə ilk növbədə vaxt itirmədən 103 Təcili Tibbi Yardım xidmətinə zəng edilməlidir: "Həkimlər gələnədək xəstə sərin və kölgəli yerə aparılmalı, sıx geyimləri boşaldılmalı və bədəni soyudulmalıdır. Huşu yerindədirsə, ona kiçik qurtumlarla su vermək olar. Huşu pozulmuş şəxsə isə ağızdan maye vermək qətiyyən olmaz. İnfarkt və ya insult şübhəsi olduqda xəstəni yeritmək, həkim məsləhəti olmadan dərman vermək və ya gözləmək düzgün deyil. Xüsusilə insult şübhəsi zamanı diaqnoz dəqiqləşmədən aspirin qəbul etdirilməməlidir. Ən vacib məsələ xəstənin mümkün qədər tez ixtisaslaşmış tibbi yardım almasını təmin etməkdir".

Terapevt vurğuladı ki, isti havalarda sadə qoruyucu tədbirlərə əməl etmək bir çox ciddi sağlamlıq probleminin qarşısını ala bilər: "Bəzən bir stəkan su, bir neçə dəqiqə kölgədə istirahət və ya vaxtında edilən bir zəng insan həyatını xilas edə bilər".

## YAY AYLARINDA EDİLƏN ƏN CİDDİ SƏHV

Türkiyənin tanınmış kardiologiya mütəxəssislərindən biri olan Prof. Dr. Bengi Başer bildirir ki, yay aylarında insanların yol verdiyi ən ciddi səhvlərdən biri uzun müddət istidə qaldıqdan sonra qəfil soyuq suya girməkdir: "Yay aylarında havaların istiləşməsi ilə orqanizm tərləyir və bu zaman təkcə su deyil, natrium və kalium kimi elektrolit balansını qoruyan həyati minerallar da itirilir. Bu, xüsusilə ürək ritm pozğunluğu və arterial hipertenziyası olan şəxslər üçün ciddi risk yaradır. Yayda ən çox rast gəlinən səhvlərdən biri uzun müddət günəş altında qaldıqdan sonra qəfil dənizə, hovuza və ya soyuq duşa girməkdir. Bu zaman damarlar kəskin şəkildə yığılır və damar spazmı nəticəsində infarkt riskini artıra bilər".

### BEYNƏLXALQ KARDİOLOJİ TƏŞKİLATLARDAN ÜÇ VACİB XƏBƏRDARLIQ

Avropa Kardioloji Cəmiyyətinin (ESC) və Amerika Ürək Assosiasiyasının (AHA) tövsiyələrində qeyd olunur ki, yay aylarında ürək-damar riskini azaltmaq üçün bir neçə vacib məqama diqqət yetirilməlidir: Dərman dozalarının həkim nəzarəti ilə tənzimlənməsi - isti hava damarların genişlənməsinə və tərləmə nəticəsində arterial təzyiqin enməsinə səbəb ola bilər. Buna görə də hipertoniya və sidikqovucu dərman qəbul edən şəxslərə yay aylarında müalicə planını həkimlə yenidən qiymətləndirmək tövsiyə edilir.

Ani temperatur dəyişikliklərindən çəkinmək - uzun müddət günəş altında qaldıqdan dərhal sonra soyuq suya girmək və ya çox soyuq duş qəbul etmək damarların kəskin yığılmasına səbəb ola bilər. Bu isə ürək-damar sistemi üçün əlavə risk yaradır.

Elektrolit balansının qorunması - güclü tərləmə zamanı orqanizm natrium və kalium kimi vacib minerallarını da itirir. Bu mineralların çatışmazlığı, xüsusilə kalium səviyyəsinin azalması, ürək ritminin pozulması riskini artıra bilər. Buna görə mütəxəssislər kifayət qədər maye qəbulu ilə yanaşı, elektrolit balansının qorunmasını da vacib hesab edirlər.



# ŞEİRLƏRİ İLƏ PORTRETİNİ YARADAN ŞAİR



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

**İlk şeiri "Xatirələr" olan Çingiz Əlioğlu indi özü qələm yoldaşlarının, onu tanıyanların dilində bir xatirəyə çevrildi. Amma bu xatirələrdə bir əsas nüans daha çox önə çıxır: Çingiz Əlioğlunun insanlığı, dostluğa sədaqəti, səmimiyyəti, insanlara münasibəti...**

Çingiz Əlioğlu dünyadan köçdü... İndi onunla bir vaxtda, eyni ədəbi mühitdə yol gedən, dostluq edən, söz-söhbətini, yaradıcılığını, xarakterini yaxından tanıyan qələm yoldaşları, ədəbiyyat adamları onu kövrək hisslərlə xatırlayırlar. Hər kəsin yaddaşında mərhumla bağlı ayrı bir xatirə, ayrı bir söz, ayrı bir Çingiz Əlioğlu var.

İlk şeiri "Xatirələr" olan şairin indi özü qələm yoldaşlarının, onu tanıyanların dilində bir xatirəyə çevrildi. Amma bu xatirələrdə bir əsas nüans daha çox önə çıxır: Çingiz Əlioğlunun insanlığı, dostluğa sədaqəti, səmimiyyəti, insanlara münasibəti...

### "ÇİNGİZ TƏRCÜMEYİ-HALINI ÖZÜ YAZMIŞDI"

Yazıçı-dramaturq Seyran Səxavət "Mən təkcə qələm dostumu deyil, həm də uşaqlıq dostumu itirmişəm"- deyə təəssüflənir: "Biz 4-5 yaşından bir yerdə böyümüşük. Üstümüzün-başımızın bulaşıq vaxtı, torpaqda birgə eşələnmişik. Çingiz mənim üçün əziz adam idi. O şeirləri ilə heç kəsə oxşamırdı. Çingizin şeirləri ancaq Çingiz Əlioğluna bənzəyirdi. Özü də ancaq öz şeirlərinə oxşayırdı. Əgər şeirləri insan sifətinə çevirmək mümkün olsaydı və Çingizin şeirlərini çevirsəydik, onun portreti alınardı".

S.Səxavət uşaqlıq dostunun təbiət etibarı ilə də qeyri-adi olduğunu deyir: "Çingiz oturub-durmalı oğlan idi. Yaxşı ailəsi vardı. Ocağında iki ağıllı oğlu var. Həyat yoldaşı Südabə xanım onun bütün nazını, əziyyətini çəkdi. Biz onunla çox qaynayıb-qarışmışdıq. Çingiz fərqlənməyi xoşlayırdı. İddialı, hikkəli idi, amma bu xüsusiyyətlərinin də bəraəti vardı. Kimsə özünü ona oxşatmaq istəyəndə xoşlamırdı. Bu xüsusiyyətləri ilə Çingiz hamıdan fərqlənirdi. Şair və yazıçılar var ki, anadan olmamış tərcümeyi-halları masanın üstündə hazırdır. Ancaq Çingiz tərcümeyi-halını özü yazmışdı. Heyf ...".

### "ELƏ BİL DÜNYAMIZ KİÇİLİR..."

Əməkdar incəsənət xadimi, yazıçı-dramaturq Elçin Hüseynbəyli hələ gəncliyindən, yeniyetmə vaxtlarından Çingiz Əlioğlunun poeziyasını sevdiyini deyir: "Çingiz müəllim televiziyada veriliş aparırdı. Biz tələbə olanda bir neçə dəfə bizi verilişinə çəkmişdi. Ancaq mən Yazıçılar Birliyinə gələndən sonra onunla daha çox yaxınlaşdım. O, öz siması, yaradıcılığı, boy-buxunu, danışığı ilə ədəbiyyat adamı idi. Yaradıcılığında bütün şairlər kimi sevgi motivlərinə üstünlük verirdi, ancaq onun poeziyasında hər şey vardı: həm vətənlə bağlılıq, həm ictimai mövzulu şeirlər..."

E.Hüseynbəyli son zamanlar bizim çox görkəmli şair və yazıçılarımızın dünyadan köçdüyünü təəssüflə bildirir: "Elə bil dünyamız kiçilməyə, ədəbiyyatımız itirməyə başlayıb. Elə bil oxucu qıtlığı dövrü gəlib çatıb ki, kütləviləşmək, populyarlaşmaq mümkün olmadığına görə onların yeri də boş görünür. Çox təsiredici və təəssüfedici haldır ki, bu cür böyük insanlarımız gedirlər, onların yerini doldura biləcək şair və yazıçılarımız olsa belə, böyük oxucu auditoriyasına malik deyillər. Digər tərəfdən, heç kim heç kimi əvəz edə bilməz - nə insanlıqları, nə də yaradıcılıqları ilə. Biz yalnız onların xatirələri ilə, qoyduqları izlərlə yaşaya bilərik..."

### "ONU DÜŞÜNDÜRƏN NƏ VARDISA YAZIRDI..."

Filologiya elmləri doktoru, tənqidçi Vaqif Yusifli "Çingizin ölümü bütün ədəbiyyat adamları kimi məni də sarsıtdı və həyəcanlandırdı", - deyə xatirələrini bölüşür: "Çingizlə mənim münasibətim 80-ci illərdən başlayır. Onun yaradıcılığı haqqında bir neçə məqalə də yazmışam. Çingizin özünəməxsus fərdi ifadə tərzi, üslubu vardı. O, heç kimə oxşamırdı. 1985-ci ildə "Ulduz" jurnalında bir-biri ilə dost olan, eyni ildə ədəbiyyata gələn 3 şair - Nüsrət Kəsəmənli, Sabir Rüstəmxanlı və Çingiz Əlioğlu haqqında yazmışam. Hər birinin ayrıca üslubu vardı. Çingiz həm heca, həm sərbəst vəzndə şeirlər yazırdı. O, Rəsul Rza poetik məktəbinin davamçısı idi. Amma onu təkrar etmirdi. Çingiz bütün mövzularda - onu düşündürən nə vardısa yazırdı. Çingiz əslən Füzuli rayonundan idi. İlyas Əfəndiyevin bacısı oğlu idi. Amma onun yaradıcılığında bir qarabağlı kimi regionçuluq hiss edilmirdi. Son illər xəstə olduğunu bilirdim. Aramızda münasibət yaxşı idi. O məni bir tənqidçi kimi, mən də onu bir şair kimi qəbul edirdim. Ədəbiyyatımız onun simasında istedadlı və layiqli bir şairi itirdi..."

### "ELƏ BİL DÜNYAM UÇDU..."

"Mən Çingiz Əlioğlunun ölüm xəbərini eşidəndə sanki böyük bir dünyam uçdu" - deyə ədəbiyyatşünas-tənqidçi Əsəd Cahangir kədərini bölüşür: "Çingiz Əlioğlunun yaradıcılığı üçün dillə, sözlə modern münasibət səciyyəvi idi. O, Rəsul Rza ənənələrini davam və inkişaf etdirən bir şair idi. Onun şeirlərinin əsas qəhrəmanı istehsalat qəhrəmanı, tarixi qəhrəman, kommunist partiyasının rəhbəri, fəhlə və ya kəndli deyildi. Çingiz Əlioğlunun əsas qəhrəmanı insan idi. Onun daxili duyğuları, hissləri, əzabı, problemləri idi. Bu nöqteyi-nəzərdən onun Vaqif Bayatlı Ödər, Adil Mirseyid, Ramiz Rövşən kimi 60-cı illərdə ədəbiyyata gələn şairlər arasında özünəməxsus dəst-xətti vardı".

Ə.Cahangir Çingiz Əlioğlunu insani xüsusiyyətləri ilə fərqləndiyini deyir: "Məsələn, o, gənclərin yaradıcılığına böyük qayğı və həssaslıqla yanaşırdı. Çünki özü də 60-cı illərdə poeziyaya gələndə yaşlı nəslin nümayəndələri tərəfindən müəyyən təpkilər görmüşdü. O, gənclərin belə təpkilərlə qarşılaşmasını istəmirdi. Gənclərin yaradıcılığını oxuyurdu, izləyirdi. Lazım biləndə onlar haqqında yazılar yazır, onlara mənəvi dəstək dururdu. Evi olmayan, həyatında problem olan gəncləri mənəvi cəhətdən qanadı altına alırdı. Mədəniyyət Nazirliyində kitab-poliqrafiya şöbəsinin müdiri işləyəndə məni dəfələrlə işə dəvət eləmişdi. Düzdür, getmədim, Yazıçılar Birliyində qalmağa üstünlük verdim. O, imkanı çərçivəsində perspektivini gördüyü gənclərə qayğı göstərmək istəyirdi. Çingiz Əlioğlu özünün həm yaradıcılığı, həm də insanlığı ilə ədəbiyyatımızda və xatirələrimizdə daim yaşayacaq".






Fotolar: Sabir Məhəmmədov-Tapdıq Abdullayev /Global Photostock

Kaspi
ÜÇ ƏSRİN QƏZETİ
İDMAN
15 AVQUST Ş



QARABAĞ
2:0
DİNAMO



SABAH
4:0
ORXUS

# HƏR İKİSİ ETİMADI DOĞRULTDU

“Sabah” artıq avrokubokların əsas mərhələsində iştirak hüququnu əldə edib. “Qarabağ” isə liqa mərhələsinin bir addımlığındadır.

Azərbaycan avrokubokların əsas mərhələsində iki klubla təmsil olunmağa yaxındır. “Sabah” artıq buna nail olub. “Qarabağ” isə liqa mərhələsinin bir addımlığındadır. Hər iki klubumuz 3-cü təsnifatın ilk oyununda məğlub olsa da, cavab qarşılaşmasında onlara bəslənən ümidləri doğruldaraq geridönüş etməyi bacardı. “Sabah” ən azı Avropa Liqasının əsas mərhələsini özü üçün təmin edib. Komanda buna Çempionlar Liqasında pley-offa yüksəlməklə nail oldu. Danimarka “Orxus”u üzərində Bakıda qazanılan möhtəşəm qələbə qitənin bir nömrəli klub turnirinin məşhur himninin yenidən paytaxtımızda səslənməsi anlamına gəlir. İlk iki mərhələdə müvafiq olaraq Uelsin TNS və Finlandiyanın “KuPS” klublarını asanlıqla mübarizədən kənarlaşdıran Azərbaycan çempionu 3-cü raundda daha dişli rəqiblə üz-üzə idi. Danimarkalılar buraya Polşa təmsilçisi, güclü “Lex”i səfərdə böyük hesabla yenməklə gəlmişdilər. İlk oyunda da rəqib üstün tərəf olmuşdu. Lakin 1:2 hesablı yenilgiyə baxmayaraq, “Sabah” göstərdiyi oyunla bu komandanı mübarizədən kənarlaşdırmağın mümkünlüyü siqnallarını vermişdi. Cavab qarşılaşmasında hər şey planlaşdırılan kimi oldu.

“Sabah” Bakıda “Orxus”u darmadağın etdi. Özü də söhbət təkcə hesabın 4:0 olmasından getmir. Komandamız bütün komponentlərdə rəqibini bir baş üstələməyi bacardı. Oyuna çox sürətli başlayan Valdas Dambrauskasın yetirmələri hələ ilk hissədə bir neçə dəfə fərqlənə bilərdilər. Bəzi epizodlarda bir qədər qeyri-dəqiqlik, bəzilərində bəxtsizlik fasiləyə qədər hesabın dəyişməsinə imkan vermədi. İkinci hissədə meydanda yalnız bir komanda var idi. Vurulan 4 qol, yaradılan saysız-hesabsız təhlükəli epizodlar “Sabah”ın rəqibindən nə qədər güclü olduğunu əyani göstərdi. Velyko Simiçin açılışı etdiyi qarşılaşmada Stiv Solvet, Coy-Lens Mikels və Ksander Severina da adlarını tabloya yazdırmağı bacardılar. İki oyunun cəmində rəqibini 5:2 üstələyən “Sabah” ilk dəfə yarışdığı Çempionlar Liqasında əsas mərhələnin bir addımlığındadır.

## Son əngəl “Hapoel”dir

“Sabah” pley-offda İsrail çempionu ilə oynayacaq. Beer-Şeva “Hapoel”i gözləntiləri alt-üst edərək sürprizə imza atdı. Onlar hər iki qarşılaşmada güclü rəqibini məğlub etməyi bacardılar. Avrokuboklarda daha böyük təcrübəyə malik “Srvena Zvezda”dansa “Hapoel” ilə qarşılaşmaq təmsilçimizin şanslarını artırır. Düzdür, İsrail çempionu bura qədər göstərdiyi performansla möhkəm kollektiv olduğunu sübut edib. Pley-offda “Sabah”ı çox çətin iki duel gözləyir. Rəqib güclüdür, ancaq keçilməz deyil. Bəli, “Sabah” ən azı Avropa Liqasının əsas mərhələsini təmin edib, lakin əsas məqsəd uyğun rəqibi sıradan çıxarıb Çempionlar Liqasında daha irəli getməkdir. Tərəflər arasında ilk oyun avqustun 19-da Macarıstanda baş tutacaq. Cavab qarşılaşması isə 25 avqustda Bakıda olacaq.

### ÖZÜNƏ BƏNZƏMƏYƏ BAŞLAYAN “QARABAĞ”

“Qarabağ” hər zaman avrokubokların ilk oyunlarında çətinliklə üzləşsə də, getdikcə futbolçuların formaya düşməsi sayəsində performansını artırması ilə diqqət çəkib. Bu mövsüm heyətdə baş verən çoxlu yeniliklər səbəbindən proses daha uzun çəkdi. Kiyev “Dinamo”suna qarşı ikinci təsnifat mərhələsinin ilk oyununda “atlılar” məğlub olmaqla yanaşı, zəif performans göstərmişdilər. Bakıdakı cavab qarşılaşmasında Ağdam təmsilçisi ağırlığını ortaya qoymağı bacardı. Adlı-sanlı rəqibdən çəkinməyən ən uğurlu avrokubok komandamız oyuna tam nəzarət etməyi bacardı, ağıllı və səbirli oyunla lazım olan qolları vurdu. 12-ci dəqiqədə yeni transfer Jali Muaddib fərqləndi. Ümumi hesabdakı geriliyin erkən aradan qaldırılması oyunun gedişatına müsbət təsir etdi. “Qarabağ” bundan sonra oyunun ipini əlində saxladı. Futbolçuların təzyiq altında olmaması daha yaxşı performans göstərmələrinə şərait yaratdı. 69-cu dəqiqədə Aleksey Kaşuk həmyerlilərini cəzalandıraraq “Qarabağ”ın pley-offa vəsiqə qazanmasını rəsmiləşdirdi.

### YENƏ “TVENTE”

“Qarabağ” 3-cü dəfə avrokuboklarda Niderland təmsilçisi “Tvente” ilə üz-üzə gələcək. Bu komanda “atlılar” üçün uğurlu hesab olunur. Düzdür, “Qarabağ” heç vaxt “Tvente”yə qalib gələ bilməyib, lakin ilk dəfə Avropa Liqasının qrup mərhələsinə düşərkən pley-offda məhz Ensxede klubunu mübarizədən kənarlaşdırmışdı. 2014-cü ildə hər iki oyunda heç-heçə qeydə alınsa da, o zamankı qaydalara əsasən, səfərdə vurduğu qola görə Azərbaycan təmsilçisi mərhələ adlamışdı. Digər iki oyunun da biri sülhlə bitib, digərində rəqib qələbə qazanıb.

“Tvente” pley-offa vəsiqəni Slovakiyanın “Dunayska Streda” klubunu asanlıqla mübarizədən kənarlaşdırmaqla əldə edib. Niderland təmsilçisi, şübhəsiz, “Qarabağ”ın bu mövsüm Avropada üzləşdiyi ən güclü komandadır. Lakin “atlılar” indiyə qədər qitəmiqyaslı turnirlərdə dəfələrlə daha güclü kollektivləri sıradan çıxarmağı bacarıblar. Bu baxımdan yenə “Qarabağ”dan uğurlu nəticə gözləyən azarkeşlərin çox olması anlaşılandır.

“Qarabağ” da “Sabah” kimi pley-offun ilk oyununu səfərdə keçirəcək. Niderlanddakı qarşılaşma avqustun 20-də baş tutacaq. Cavab oyunu isə bundan bir həftə sonra doğma meydanda olacaq.